

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

25 sentyabr 2026-cı il, cümə

№ 174 (7241)

Qiyməti 60 qəpik


## Vətən müharibəsinə 2 gün qalırdı...



Bax səh. 3



# Daimi inkişaf naminə...

**Prezident İlham Əliyev tərəfindən təsdiqlənən müvafiq Dövlət proqramlarının ölkə iqtisadiyyatını gücləndirəcəyinə, vətəndaşların sosial vəziyyətini yaxşılaşdıracağına və müasir infrastruktur təminatına yeni təkan verəcəyinə böyük əminlik var**

Bax səh. 2

## 72-ci əfv...

**İnsana, onun taleyinə və cəmiyyətə münasibəti göstərən mühüm humanist addım**

Bax səh. 3




## Cənubi Qafqazın gələcək inkişaf trayektoriyası...

**Bu gün verilmiş qərarlardan keçir**

Bax səh. 2

### BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində...

Bax səh. 4

### Dövlət büdcəsinin təsnifatı dəyişir...

Bax səh. 5

### Nyu-Yorkda və Vaşinqtonda mühüm müzakirələr...

Bax səh. 6

### İqtisadiyyatın hərəkətverici qüvvəsi...

Bax səh. 7

### Lavrov və Rubio hansı məsələləri müzakirə ediblər?

Bax səh. 7



## Xarici investorlar üçün yeni fürsət

Bax səh. 5

### Aİ təsdiqlədi...

**Ukraynaya 3 milyard avroya yaxın vəsait veriləcək**

Bax səh. 7

# Prezident İlham Əliyev Çin və İtaliya şirkətlərinin rəhbər şəxslərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Çinin “01.AI” və “Sinovation Ventures” şirkətlərinin baş icraçı direktoru Kei-Fu Lini, İtaliyanın “TEHA Group” şirkətinin Beynəlxalq sammitlər üzrə koordinatoru və Səudiyyə Ərəbistanı üzrə inkişaf rəhbəri Filippo Malinvernonu qəbul edib.

AZƏRTAC xəbər verir ki, qonaqlar qəbula görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Onlar Prezident İlham Əliyevin himayəsi altında Bakıda keçiriləcək İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda iştirak edəcəklərini dedilər və bu tədbirin əhəmiyyətinə toxundular.

Prezident İlham Əliyev ölkəmizin həm Çin, həm də İtaliya ilə sıx münasibətlərinin olduğunu vurğuladı, hər iki ölkədən olan iş adamlarının Azərbaycana sərmayə yatırdıqlarını bildirdi.

Söhbət zamanı “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası”nın təsdiq edildiyi xatırlandı, ölkəmizdə mövcud əlverişli biznes mühitinə toxunuldu, yerli sahibkarlarla yanaşı, xarici investorlar üçün yaradılmış münbit şəraitdən bəhs olundu.



Görüşdə yaşıl enerji, kibertəhlükəsizlik, təhsil və digər sahələrdə süni intellektin praktiki tətbiqi ilə bağlı fikir mübadiləsi aparıldı, ölkəmizlə bu şirkətlər arasında əməkdaşlıq imkanları müzakirə edildi.



# Daimi inkişaf naminə...

## Prezident İlham Əliyev tərəfindən təsdiqlənən müvafiq Dövlət proqramlarının ölkə iqtisadiyyatını gücləndirəcəyinə, vətəndaşların sosial vəziyyətini yaxşılaşdıracağına və müasir infrastruktur təminatına yeni təkan verəcəyinə böyük əminlik var

Dünyaya nümunəvi inkişaf modeli təqdim edən Azərbaycanın məqsədyönlü siyasəti konseptual səciyyə daşıyır. Respublikamızda gözəl ənənə formalaşıb. Belə ki, ölkəmizdə ayrı-ayrı istiqamətlər üzrə qlobal çağırışlar, daxili potensial və cəmiyyətin sosial sifarişləri nəzərə alınmaqla çoxillik Dövlət proqramları qəbul edilir. Genişmiqyaslı tədbirlər planına malik olan bu proqramların icrası bir qayda olaraq Prezident İlham Əliyevin şəxsi nəzarəti altında yüksək səviyyədə yerinə yetirilir.

Dövlət proqramları ölkənin sosial-iqtisadi inkişaf dinamikasına güclü şəkildə təsir göstərir. O cümlədən son vaxtlarda Prezident İlham Əliyev tərəfindən təsdiqlənən müvafiq Dövlət proqramlarının ölkə iqtisadiyyatını gücləndirəcəyinə, vətəndaşların sosial vəziyyətini yaxşılaşdıracağına və müasir infrastruktur təminatına yeni təkan verəcəyinə böyük əminlik var. Mütəxəssislərin qənaəti belədir ki, qəbul edilmiş proqramlar qeyri-neft sahəsində artımı daimi və uzunmüddətli edəcək.

Ölkəmizdə su təchizatına həssas yanaşma sərgilənir. Prezident İlham Əliyev etibarlı su təchizatına nail olunmasını müstəqil Azərbaycanın strateji hədəfindən biri kimi müəyyənləşdirib. Belə həssas yanaşma isə təsadüfi deyil. Bu, həm qlobal çağırışlarla, həm də ölkəmizin reallıqları ilə bağlıdır.

Mütəxəssislər yeni minillikdə su ehtiyatlarının geostrateji əhəmiyyətinə diqqət çəkərək bildirirlər ki, XXI əsrdə su neftin ötən əsrdəki yerini tuta bilər. Həqiqətən də, müasir dövrdə su mənbələrinin çatışmazlığı dünyanı təhdid edən qlobal problemlərdən birinə çevrilib. Verilən məlumatlara görə, hazırda dünyada təxminən 1,5 milyard insan içməli su çatışmazlığından əziyyət çəkir. BMT-nin yaydığı hesabat həyəcan təbili çalmağa əsas verir. Qurumun hazırladığı müvafiq hesabatda göstərilir ki, ötən əsrin 50-ci illərində əhalisi 50 milyondan az olan yalnız 12 ölkə su qıtlığı problemi ilə qarşılaşıb. Ötən əsrin 90-cı illərində bu göstərici 2 dəfədən çox artıb və əhalisi 300 milyon nəfər olan 26 ölkə su çatışmazlığı problemindən əziyyət çəkib. Bu minvalla 2050-ci ildə 65 ölkədə 10 milyard nəfərə yaxın insan su çatışmazlığı ilə üz-üzə qalacaq.

Su təchizatı məsələsi həmçinin Azərbaycan üçün də çox aktualdır. Respublika ərazisində içməyə yararlı sular məhdud ehtiyatlara malik olmaqla qeyri-bərabər paylanıb. Hazırda ölkənin yerüstü su ehtiyatları 27 kubkilometr təşkil edir, quraq illərdə isə bu ehtiyat 20-21 kubkilometrə qədər azalır. Yerüstü su ehtiyatlarının mənbələrini çaylar, göllər, su anbarları və buzlaqlar təşkil edir.

Dövlətin su təhlükəsizliyinə həssas yanaşmasını şərtləndirən digər bir vacib məqam respublika üzrə yerüstü su ehtiyatlarının təqribən 75 faizinin qonşu ölkələrdən daxilolmaların hesabına formalasıdır. Qonşu ölkələrdən, xüsusilə də Ermənistan ərazisindən daxil olan suların mütəmadi olaraq çirkləndirilməsi də çox ciddi problemdir. Eyni zamanda, qlobal iqlim dəyişmələri və orta temperaturun yüksəlməsi, çaylarda sululuğun əhəmiyyətli dərəcədə azalması su ehtiyatlarının həcminə mənfi təsir göstərir. Digər bir vacib faktor isə Azərbaycanın davamlı inkişafı ilə bağlıdır. 2004-cü ildən başlayaraq Azərbaycanda ardıcıl olaraq regional inkişaf proqramları qəbul edilib. Həmin proqramların icrası çərçivəsində bölgələrimiz də iqtisadi güc mərkəzlərinə çevrilib, regionlarda iri təsərrüfatlar yaradılıb və beləliklə də, suvarma və içməli su təchizatı üzrə şəbəkələr genişləndirilib. Bütün bunların nəticəsi olaraq suya tələbat artıb.

Bu kimi reallıqlar nəzərə alınmaqla son 22 ildə ölkəmizdə genişmiqyaslı su layihələrinin icrasının prioritetliyi təmin edilib. Bu barədə 2026-cı il yanvarın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədə ətraflı məlumat verilib. Statistika kifayət qədər zəngindir. Ötən dövrdə dörd irihəcmli su

### Etibarlı su təminatı strateji çağırışlardan biri kimi

anbarının inşası böyük nailiyyətdir. Bu su anbarlarının potensialı 500 milyon kubmetrdən çoxdur. Onların arasında xüsusilə “Taxtakörpü”, “Şəmkirçay” su anbarlarını qeyd edə bilərik. Əgər bu su anbarları tikilməsəydi, bu gün həm Bakının su təchizatı, həm də qərb zonasının su təchizatı böyük problemlərlə üzləşə bilərdi. “Taxtakörpü” su anbarı imkan verdi ki, Samur çayının suları “Ceyranbatan” su anbarına yığılsın və orada ehtiyat yaradılsın. O cümlədən “Ceyranbatan” su anbarı tamamilə yenidən qurulub, yeni, müasir təmizləyici qurğular kompleksi inşa edilib.

Postmüharibə dövründə isə işğaldan azad edilmiş ərazilərdə də içməli su və suvarma layihələri icra edilir. Hazırda ölkəmizin su mənbələrinin təqribən dörddəbir hissəsi vaxtilə işğal altında olmuş ərazilərdə formalaşır. Bu su mənbələrinin üstünlüyü də odur ki, bunların əksəriyyəti Azərbaycan ərazisindədir. Burada son beş il ərzində bir neçə önəmli layihə başa çatıb. Vaxtilə Ermənistan tərəfindən dağıdılmış və yararsız vəziyyətə salınmış su anbarları əsaslı təmir edilib. Onların arasında, ilk növbədə “Sərsəng” su anbarını qeyd etmək mümkündür. Bu, nəinki azad edilmiş ərazilərdə, bütövlükdə ölkəmizdə ən böyük su anbarlarından biridir. Vaxtilə torpaqlarımız işğal altında olanda Ermənistan dövləti bizə qarşı su terroru da həyata keçirirdi. “Sərsəng” və “Suqovuşan” su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi bizə böyük problemlər yaradırdı. Su lazım olan aylarda kəsilirdi, suya tələbat azalanda isə buraxılırdı və bu, böyük daşqınlara səbəb olurdu. Yəni, əslində, Ermənistan dövləti su terroru həyata keçirirdi. Bu gün isə “Suqovuşan” su anbarı, “Sərsəng” su anbarı tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda - Füzuli rayonunda “Köndələnçay”, Ağdam rayonunda “Xaçınçay” su anbarları yenidən qurulub. Laçın rayonunda tamamilə yenidən qurulmuş “Zabuxçay” su anbarı bu gün artıq istismardadır. Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının - “Həkəriçay”, “Bərgüşadçay” su anbarlarının tikintisi də nəzərdə tutulur.

### İki mərhələdə həyata keçiriləcək Dövlət Proqramı

Son 22 ildə ölkəmizdə genişmiqyaslı su layihələrinin icrasının prioritetliyi təmin edilsə də, bu sahədə həllivacib məsələlər də kifayət qədər çoxdur. Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılovun məlumatına əsasən, Bakı şəhərindəki su və kanalizasiya sistemləri əsasən 1980-ci illərin sonuna qədər hazırlanıb və o gündən bu günə qədər yaşayış məntəqələrinin ərazisi 2,6 dəfə, əhalisi isə 2,1 dəfə artıb. Əsas magistral xətlərin istismar müddəti çoxdan başa çatıb, müasir nəzarət sistemləri də standartlara heç bir şəkildə cavab vermir. Bunların çoxunun ömrünün 40-50 il olmasını nəzərə alsaq, onların istismar müddəti artıq başa çatıb. Əksər yağış suyu kollektorlarının kanalizasiya xətlərinə qoşulması səbəbindən sistemlərdə əlavə yüklənmələr yaranır. Bir çox magistral xətlərin mühafizə zonalarının tikinti altına düşməsi, kanalizasiya şəbəkəsinin məhdud olması da təcili qaydada tədbirlər görülməsini zərurətə çevirib.

Eyni zamanda, respublikamızda regional inkişafın prioritetliyi hədəflənib. Prezident İlham Əliyev “Şəhərdən kəndə” devizini irəli sürüb. Regional inkişafda daha sürətli dinamikaya keçid edilməsi ilə paralel şəkildə bölgələrdə yeni torpaqların dövriyyəyə cəlb olunması zərurəti yaranıb. Bu isə suvarma suyuna tələbatın artması deməkdir. Beləliklə də, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq ölkəmizin su təhlükəsizliyinin təmin olunmasında yeni mərhələyə keçid edilir.

Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramında qarşıya mühüm hədəflər qoyulub. Bakının və Abşeronun su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı təsdiqlənib. Bununla bağlı Prezident İlham Əliyev yanvarın 12-də sərəncam imzalayıb. Mühüm məqamlardan biri ondan ibarətdir ki, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Prezidentinə məlumat verilməsi nəzərdə tutulur.

Dövlət Proqramı müvafiq ərazilərdə su təchizatı və tullantı suları sistemləri infrastrukturunun inkişaf etdirilməsi, intensiv yağışlar zamanı subasma risklərinin azaldılması, fasiləsiz və dayanıqlı su təminatının gücləndirilməsi məqsədilə hazırlanıb. Proqram 2026-2035-ci illəri əhatə etməklə iki mərhələdə həyata keçiriləcək. 2026-2030-cu illəri əhatə edən birinci mərhələdə su və kanalizasiya infrastrukturu yenidən qurulacaq. 2031-2035-ci illəri əhatə edən ikinci mərhələdə isə yeni su anbarlarının və nasos stansiyalarının tikintisi, su təchizatının fasiləsizliyinin təmin olunması və müasir xidmət modellərinin tətbiqi prioritet istiqamətlər kimi müəyyən ediləcək.

Qəbul edilən Dövlət proqramının ardınca su təsərrüfatında struktur islahatlarına da start verilib. Dövlət başçısının 20 fevral 2020-ci il tarixində imzaladığı müvafiq fərmanla Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan “Regional Su Meliorasiya Xidməti” və “İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti” publik hüquqi şəxslərin yenidən təşkili strateji önəm daşıyan su təhlükəsizliyi məsələsinə son dərəcə həssas yanaşmanın daha bir ifadəsidir. Struktur islahatları dövlət başçısının təsdiqlədiyi milli su strategiyasının hədəflərinə tam uyğundur. Fərmanla “Regional Su Meliorasiya” Qapalı Səhmdar Cəmiyyəti meliorasiya və irriqasiya sahəsində xidmətlər göstərən, dövlət mülkiyyətində olan meliorasiya və irriqasiya sistemlərinin istismarını və mühafizəsini, balansında (istifadəsində) olan su təsərrüfatı obyektlərinin (su anbarlarının, kanalların, boru xətlərinin və s.) istismarını, həmçinin Azərbaycan Respublikasının rayon və şəhərlərində (Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və Şirvan şəhərləri istisna olmaqla) istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxs kimi müəyyənləşdirilib. “İri Şəhərlərin Su Təchizatı” Qapalı Səhmdar Cəmiyyəti isə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və Şirvan şəhərlərində istehlakçıların məişət (təsərrüfat) - içməli, istehsalat və digər məqsədlər üçün su ilə təmin olunması, yağış və tullantı sularının emalı və axıdılması xidmətlərini həyata keçirən dövlətə məxsus kommersiya hüquqi şəxs kimi fəaliyyət göstərəcək. Su təsərrüfatında aaparılan struktur islahatları ilk növbədə idarəetmənin optimallaşdırılması, nəzarətin gücləndirilməsi və itkilərin minimuma endirilməsi, eləcə də keyfiyyətin daha da yaxşılaşdırılması məqsədi daşıyır.

### Aqrar sektorun inkişafında yeni dövr

Respublikamızda əhalinin təxminən yarısının bölgələrdə yaşadığını nəzərə alsaq, aqrar sektorun potensialından səmərəli istifadə edilməsinin sosial-iqtisadi inkişaf, əhalinin rifah halının yaxşılaşdırılması, məşğulluq səviyyəsinin yüksəldilməsi baxımından nə qədər böyük önəm daşıdığı barədə konkret təsəvvür yaranar. Bu reallıq nəzərə alınmaqla son 22 ildə kənd təsərrüfatında potensialı, gəlir imkanları böyük olan, məşğulluq üçün geniş imkanlar açan perspektivli sahələrin inkişafı diqqət mərkəzində saxlanılıb və yaxşı nəticələr əldə olunub. Görülən işlərin davamı olaraq Prezident İlham Əliyev 25 may 2026-cı il tarixində “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nı təsdiqləyib. Bu sənəd aqrar sektorun həm bitkiçilik, həm də heyvandarlıq sahələrində gələcək inkişaf istiqamətlərini müəyyən edən mühüm strateji sənəddir. Proqramın əsas məqsədi kənd təsərrüfatında dayanıqlı və rəqabətqabiliyyətli inkişafı təmin etmək, ərzaq təhlükəsizliyini gücləndirmək, məhsuldarlığı artırmaq, innovasiya və rəqəmsallaşmanı genişləndirməkdir. Geniş əhatə dairəsinə malik olan Dövlət Proqramı 5 prioritet istiqaməti, 16 fəaliyyət istiqamətini, 86 tədbiri və 23 hədəf indikatorunu əhatə edir. Sənədə əsasən bir sıra strateji məhsulların, xüsusilə də buğda və pambıq istehsalında yerli təminat və məhsuldarlığın yüksəldilməsi, intensiv bağçılıq və heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanılacaq. Proqram çərçivəsində aqrar sektora ümumilikdə 5 milyard manatdan çox (bunun 2 milyard manatdan çoxu dövlət xətti ilə, təqribən 3 milyard manatdan çoxu isə özəl sektor tərəfindən) vəsaitin cəlb edilməsi planlaşdırılır. Həmçinin, bu proqramın davamı olaraq 10 sentyabr 2026-cı il tarixində dövlət başçısı tərəfindən “Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027-2032-ci illər üçün Dövlət Proqramı” da təsdiq edilib ki, bu da “tarladan süfrəyədək” qida zəncirinin tam təhlükəsiz idarə olunmasına xidmət edir.

### Azərbaycan üçün yeni başlanğıc - torpaqların konsolidasiyası

Dövlət Proqramında yaxın perspektivdə aqrar sektorda çox mühüm islahatların aparılması nəzərdə tutulur ki, bunlardan biri də torpaqların konsolidasiyasıdır. Bu, Azərbaycan üçün yeni bir başlanğıcdır. Torpaqların konsolidasiyası müvafiq icra hakimiyyəti orqanının yaratdığı komissiyanın qərarı əsasında hazırlanan layihə ilə həyata keçirilir. Layihədə torpaq sahələrinin mövcud vəziyyətinin təhlili, yeni sərhəd-yerləşmə sxeminin mülkiyyətçilərlə razılaşdırılması, infrastruktur dəyişiklikləri əks etdirilir. Komissiyanın qərarı ilə təsdiq olunan bölgü sənədi daşınmaz əmlak hüquqlarının dövlət qeydiyyatı üçün əsas kimi çıxış edir. Bu mexanizm konsolidasiya prosesinin şəffaf, mübahisəsiz və hüquqi cəhətdən etibarlı şəkildə başa çatdırılmasını təmin edir. Torpaq parçalanmasının yeni formada davam etməsinin qarşısını almaq məqsədilə kənd təsərrüfatı təyinatlı torpaqların alqı-satqı və digər özgəninkiləşdirmə yolu ilə bölünməsinə yalnız nəticədə yaranan hər bir sahənin ölçüsü 5 hektardan az olmadığı hallarda yol verilir. Bu məhdudiyyət kiçik, qeyri-səmərəli sahələrin yenidən yaranmasının qarşısını alır.

Qəbələ və Salyanın kəndlərində torpaq konsolidasiyası pilot layihəsi həyata keçiriləcək. Bu barədə kənd təsərrüfatı naziri Məcnun Məmmədov bildirib. Onun sözlərinə görə, layihə 32 kəndi və ümumilikdə 20 min hektar ərazini əhatə edəcək. “Konsolidasiya torpaq mülkiyyətinin itirilməsi demək deyil. Əksinə, fermerlər öz mülkiyyət hüquqlarını qoruyub saxlayacaqlar. Məqsəd bir fermerə məxsus müxtəlif ərazilərdə yerləşən torpaq sahələrinin birləşdirilərək vahid təsərrüfat şəklində təşkil edilməsidir. Konsolidasiyanın əsasını həmin ərazilərdə daxili və qapalı suvarma şəbəkələrinin qurulması təşkil edir. Bununla yanaşı, hər bir torpaq sahəsinin yol infrastrukturu ilə təmin olunması nəzərdə tutulur”, - deyə nazir vurğulayıb.

M.Məmmədov əlavə edib ki, hər hansı kənddə konsolidasiya aparıldıqda fermerlərin parçalanmış torpaq sahələri birləşdiriləcək, sahələrə qədər təzyiqli su çatdırılacaq, yol infrastrukturu yaradılacaq və ehtiyac olan yerlərdə drenaj sistemləri qurulacaq. Torpaq konsolidasiyası islahatının önəminə diqqət çəkən nazir bildirib: “Konsolidasiya fermerlərin xərclərinin azalmasına və təsərrüfat fəaliyyətinin daha səmərəli təşkilinə şərait yaradacaq. Fermerlər vahid ərazidə daha böyük həcmdə əkin işləri apara, müasir aqrotexniki tədbirləri daha effektiv tətbiq edə biləcəklər. Eyni zamanda, yol, suvarma, koordinat və torpaq sahələrinin parçalanması ilə bağlı mövcud problemlərin aradan qaldırılması fermerlərin fəaliyyətini asanlaşdıracaq. Nəticədə torpaq sahələrinin bazar dəyərinin də artacağı gözlənilir. Bundan əlavə, konsolidasiya həyata keçirilən ərazilər üçün xüsusi subsidiya və təşviq mexanizmlərinin tətbiqi də nəzərdən keçirilir. Məqsəd fermerlərin bu prosesdə daha könüllü və rahat şəkildə iştirakını təmin etməkdir”.

***Mübariz ABDULLAYEV***



# 72-ci əfv...

## İnsana, onun taleyinə və cəmiyyətə münasibəti göstərən mühüm humanist addım

Azərbaycanın dövlət siyasətində humanizm, insan hüquq və azadlıqlarına hörmət, cəmiyyətin müxtəlif təbəqələrinə qayğı göstərilməsi mühüm prinsiplərdən biri kimi çıxış edir. Bu yanaşmanın konkret ifadələrindən biri də mütəmadi olaraq imzalanan əfv sərəncamlarıdır. Əfv yalnız hüquqi nəticə doğuran qərar deyil, eyni zamanda dövlətin insana, onun taleyinə və cəmiyyətə münasibətini göstərən mühüm humanist addımdır. Hər bir əfv sərəncamının arxasında konkret insan taleyi, ailə münasibətləri və yenidən həyata qayıtmaq imkanı dayanır.

Əfv qərarları cəza siyasətinin yalnız məsuliyyət və məhdudiyyətlərdən ibarət olmadığını, burada islah, bağışlama və cəmiyyətə reinteqrasiya kimi humanist prinsiplərin də mühüm yer tutduğunu nümayiş etdirir. Dövlət bir tərəfdən qanunun tələblərinin təmin olunmasına çalışırsa, digər tərəfdən müəyyən hallarda şəxslərin davranışını, peşmanlığını, ailə və sosial vəziyyətini nəzərə alaraq onlara yeni imkan yaradır. Bu baxımdan əfv sərəncamları hüquqi məsuliyyətlə humanizm arasında mühüm bir tarazlıq yaradır.

### Yeni Sərəncamla...

Qeyd edək ki, Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq, Azərbaycan Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq Azərbaycan Prezidenti azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş 19 şəxsin cəzasının çəkilməmiş hissəsindən, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 1 şəxsin cəzasının çəkilməmiş hissəsindən azad edilməsi haqda qərar qəbul edib.

### Fransa dövləti alqışlayır...

Budəfəki Sərəncamda əfv edilən şəxslərdən biri də 2023-cü ilin dekabrından etibarən saxlanılan Fransa vətəndaşı Martin Ryandır. Ryan Bakı Ağır Cinayətlər Məhkəməsi tərəfindən 16 mart 2026-cı il tarixdə 10 il müddətinə azadlıqdan məhrum edilmişdi. Prezident İlham Əliyevin 23 sentyabr 2026-cı il tarixli əfv sərəncamı ilə əfv olunub. Yeri gəlmişkən, Fransa Azərbaycanda 2023-cü ilin dekabrından etibarən saxlanılan Fransa vətəndaşı Martin Ryanın Azərbaycan Prezidenti tərəfindən əfv edilməsi qərarını məmnunluqla qarşılayıb. Fransanın Avropa və Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin yaydığı bəyanatda bu qərarın humanitar xarakter daşıdığı vurğulanıb və Fransa tərəfinin həmin addımı alqışladığı bildirilib. "Azərbaycan Prezidentinin əfv qərarı iki ölkə arasında diplomatik təmasların davam etdirilməsi baxımından mühüm humanitar addımdır", - deyə Fransa Xarici İşlər Nazirliyinin açıqlamasında qeyd olunub.

Əfv edilən şəxslərin ailələrində yaşanan sevinc də bu prosesin ictimai əhəmiyyətini göstərən amillərdəndir. Uzun müddət doğmalarından ayrı düşən insanların ailələrinə qayıtması, valideynlərin övladına, həyat yoldaşlarının bir-birinə, uşaqların valideynlərinə qovuşması dövlətin humanist siyasətinin cəmiyyət üçün real nəticəyə çevrildiyini göstərir. Belə qərarlar həm də cəmiyyətdə mərhəmət, bağışlama və sosial həmrəylik dəyərlərinin möhkəmlənməsinə xidmət edir.

Azərbaycanın dövlətçilik tarixində əfv institutunun ardıcıl şəkildə tətbiq olunması da bu siyasətin təsadüfi xarakter daşımadığını göstərir. Xüsusilə dövlət əhəmiyyətli tarixi hadisələr və əlamətdar günlər münasibətilə imzalanan sərəncamlar humanizm ənənəsinin davam etdirildiyini nümayiş etdirir. Burada əsas məqam ondan ibarətdir ki, dövlət yalnız qanun pozuntusuna görə cəza tətbiq edən institut kimi deyil, bağışlamağı,

### Ali dəyərə söykənən qərar...

Azərbaycan dövlətinin yürütdüyü dövlət siyasəti hər zaman humanizm və bu kimi, yüksək ali dəyərlərə söykənib. Bunun nəticəsidir ki, yüksək hüquqi dövlət quruculuğu prosesi keçmiş ölkəmizdə insan hüquq və azadlıqlarına hörmət, bağışlanma kimi yüksək dəyərlərə istinad hər zaman aktuallığını qoruyub. Bir sözlə, humanizm Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu siyasətin və müsbət ənənənin təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin humanizm ideyalarına böyük önəm verməsi və buna uyğun addımlar atılması vətəndaş həmrəyliyinə, insanların dövlətə inam və etimadının artmasına xidmət edib.

Bu siyasət Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilib. 1995-2003-cü illərdə Ulu Öndər Heydər Əliyev tərəfindən 32 əfv fərmanı, 2003-2026-cı illərdə İlham Əliyev tərəfindən 40 əfv sərəncamı 1995-ci ildən 2026-cı ilə qədər 13 amnistiya aktı imzalanıb ki, sonuncusu 2025-ci ilin dekabrında imzalanan "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiyadır. Bir faktı qeyd edək ki, Azərbaycan Prezidentinin təşəbbüsü əsasında Milli Məclis tərəfindən qəbul edilmiş "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" 2021-ci il 5 noyabr tarixli qərar 17 min 267 şəxsə şamil olunub. Bu qərar tətbiq olunan şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən geniş amnistiya olub.

Eyni zamanda, hər zaman nəcib, humanist təşəbbüsləri ilə ali insani dəyərlərə yüksək qiymət verən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyəti də xüsusi qeyd edilməlidir. Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olarkən onun təşəbbüsü ilə 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya aktı qəbul edilib. Bu təşəbbüslər xeyirxahlıq və mərhəmət kimi mənəvi idealların təcəssümünə çevrilib.

### İnsan taleyinə həssas yanaşma...

ikinci şans verməyi və insanı cəmiyyətə yenidən qazandırmağı bacaran sosial institut kimi də çıxış edir.

Göründüyü kimi, demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının müdafiəsinə dövlət tərəfindən hər zaman xüsusi həssaslıqla yanaşılır. Qeyd olunan sahəyə böyük diqqət və yüksək sayğı göstərilir ki, bu da cəmiyyətimizdə humanizm ənənələrinin hərtərəfli təşəkkül tapmasına və daha da möhkəmlənməsinə rəvac verir. Fərəhləndirici və qürurverici haldır ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hər bir istiqamətdə, o cümlədən sözügedən sahədə ardıcıl uğurlar əldə olunur ki, bütün bunlar da Azərbaycanın və xalqımızın parlaq, daha da möhkəmlənən milli birliyinin təmin edildiyi gələcəyini şərtləndirir.

*P.İSMAYILOV*



# Vətən müharibəsinə 2 gün qalırdı...

2020-ci il sentyabr ayının hər ötən günü bizi son 200 illik tariximizin ən şərəfli səhifəsinin yazılacağı Vətən müharibəsinə yaxınlaşdırırdı.Tarixin bu günündə - həmin il sentyabrın 25-də Vətən müharibəsinə cəmi 2 gün qalırdı. Sentyabrın 27-də xain düşmən otuz illik işğalçılıq siyasətinin davamı olaraq növbəti dəfə keçmiş təmas xətti boyunca təxribatlar törətdi. Azərbaycan Ordusu isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişlərinə uyğun olaraq bu təxribatlara genişmiqyaslı əks-hücum əməliyyatı ilə cavab verdi. "Dəmir yumruq" adı ilə başlayan əməliyyat sonradan Vətən müharibəsinə çevrildi.

Vətən müharibəsi uzun çəkmədi. Ordumuz cəmi 44 gün ərzində qarşısına qoyulan vəzifəni yerinə yetirməyə müvəffəq oldu. Ermənistanın hərbi birləşmələri tar-mar oldu və işğalçı dövlət noyabrın 10-da onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli bəyanatı imzalamaq məcburiyyətində qaldı. Müharibənin nəticələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü hərbi-siyasi yolla təmin edildi.

## Azərbaycan Ermənistanın müharibə hazırlıqları barədə dünyanı xəbərdar etdi

2020-ci il sentyabrın 27-də başlayan müharibənin bütün məsuliyyəti işğalçı Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Bu fikri Prezident İlham Əliyev sentyabrın 25-də Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən bir daha diqqətə çatdırıb. Regionun təhlükəsiz bir məkana çevrilmədiyini təəssüf hissi ilə qeyd edən dövlətimizin başçısı bunun əsasən Ermənistanın Azərbaycana qarşı davamlı hərbi təxribatlarına görə baş verdiyini bildirib.

Təxminən otuz ili əhatə edən işğalçılıq siyasətinə görə heç bir beynəlxalq təzyiq və sanksiya ilə üzləşməyən Ermənistanın davranışları regionda yeni müharibə risklərini son həddədək artırmışdı. Bunu hadisələrin xronoloji ardıcıllığı da təsdiqləyirdi. Qəbulda bildirildiyi kimi, Ermənistan tərəfindən ən təcavüzkar addım iyulun 12-də atılmışdı. Bu təxribat zamanı ermənilər Azərbaycan Ordusunun hərbi mövqelərini və yaşayış məntəqələrini atəşə tutmaq üçün artilleriyadan istifadə etmişlər. Bunun nəticəsində hərbi qulluqçular arasında itkilər olmuşdur və bir mülki şəxs də həyatını itirmişdir.

Qəbulda dövlətimizin başçısı həmin ərəfədə Azərbaycanın öz Ordusunu sərhəddən geri çəkdiyini xatırladıb. Bu, respublikamızın sərhəddə hansısa bir hərbi niyyətinin olmadığını təsdiqləyirdi. Ermənilər bundan səhv nəticə çıxartdılar. Onlar respublikamıza hücum edə, dövlət sərhədini keçə və yeni əraziləri işğal edə biləcəklərini düşündülər.

İyul təxribatlarından sonra avqust ayında Ermənistan tərəfindən təmas xəttinə diversiya qrupu göndərildi. Azərbaycan hərbiçiləri bu diversiya qrupunun başçısını yaxalamağa müvəffəq oldular. O, etiraf etdi və ifadə verdi ki, dəstəsi mülki əhaliyə hücum etmək, hərbiçiləri qətlə yetirmək və terror aktları törətmək üçün göndərilib.

Silsilə xarakter alan və 2020-ci ilin sentyabrında daha da intensivləşən belə təxribatların əsas məqsədi yeni ərazilər tutmaq idi. "Bu, onu göstərir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti davam edir. Onu da göstərir ki, Ermənistan müharibəyə hazırlaşır. Bunun başqa bir göstəricisi odur ki, onlar könüllülərdən ibarət qoşun yaradıldığını elan ediblər və bəyanatlara əsasən, bu dəstələr on minlərlə adamdan ibarət olacaq. Əgər Ermənistan bəzən bəyan etdikləri kimi sülh istəyirsə, əgər onlar danışıqlar istəyirlərsə, buna nə ehtiyac var? Onların bu yalan və gülünc bəyanatlar verməsinə və praktiki addımlar atmasına nə ehtiyac var? On minlərlə insandan ibarət könüllü qoşunun bir məqsədi var - Azərbaycana hücum etmək", - deyə Prezident İlham Əliyev vurğulayıb.



## Atəşkəs rejimi 61 dəfə pozulub

Düşmən respublikamıza qarşı aqressiyanı hər ötən gün daha da kəskinləşdirirdi. Sentyabrın 25-də Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 61 dəfə pozub.

Bununla bağlı Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Əlibəyli, Ağdam, Koxanəbi, Əsrik Cırdaxan, Ağbulaq və Muncuqlu kəndlərində, Çəmbərək rayonunun Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

Təxribatların qarşısını qətiyyətlə alan Azərbaycan Ordusu döyüş qabiliyyətinin artırılmasını hədəfləyən fəaliyyətini sentyabrın 25-də də davam etdirib. Belə ki, həmin gün tank bölmələri artilleriya ilə qarşılıqlı fəaliyyətdə təlim-döyüş tapşırıqlarını icra ediblər. Məşqlərin məqsədi tank və artilleriya bölmələrinin şəxsi heyətinin peşəkarlığının artırılması, döyüş əməliyyatlarının planlaşdırılması və icrası zamanı qarşılıqlı fəaliyyət vərdişlərinin təkmilləşdirilməsi olub.

Eyni zamanda, sentyabrın 25-də mühəndis-istehkam bölmələri ilə taktiki-xüsusi və döyüş hazırlığı üzrə məşğələlər keçirilib. Plana əsasən, həyəcan siqnalı ilə qaldırılaraq döyüşə hazır vəziyyətə gətirilən bölmələr mürəkkəb əməliyyat şəraitində döyüş əməliyyatlarının mühəndis təminatı üzrə tapşırıqları yerinə yetiriblər.

*Mübariz FEYİZLİ*

# BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində...

## İkitərəfli görüşlər keçirilib, anlaşma memorandumları imzalanıb

BMT Baş Assambleyasının 81-ci sessiyası yalnız qlobal gündəlikdə duran mühüm məsələlərin müzakirə edildiyi beynəlxalq platforma kimi deyil, həm də dövlətlər arasında ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafı baxımından mühüm imkanlar yaradan diplomatik müstəvi kimi yadda qalır. Sessiya çərçivəsində müxtəlif ölkələrin dövlət və hökumət nümayəndələrinin, xarici işlər nazirlərinin və digər yüksək səviyyəli rəsmilərin keçirdiyi görüşlər beynəlxalq münasibətlərdə qarşılıqlı təmasların intensivləşməsinə şərait yaradır. Belə görüşlər zamanı siyasi, iqtisadi, enerji, təhlükəsizlik, humanitar və digər sahələr üzrə əməkdaşlığın mövcud vəziyyəti nəzərdən keçirilir, yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirilir.

Baş Assambleyanın əsas xüsusiyyətlərindən biri də dünyanın müxtəlif regionlarını və siyasi mövqelərini təmsil edən dövlətləri eyni platformada bir araya gətirməsidir. Burada keçirilən çoxsaylı görüşlər, danışıqlar və təmaslar dövlətlərə bir-birinin mövqelərini daha yaxından öyrənmək, fikir ayrılıqlarının diplomatik yollarla müzakirəsinə imkan yaratmaq və qarşılıqlı maraq doğuran məsələlər üzrə anlaşma axtarmaq imkanı verir.

### Azərbaycan ilə Mərkəzi Afrika Respublikası arasında Birgə Kommünike imzalanıb

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da sessiya çərçivəsində mühüm görüşlər keçirib. C.Bayramov Mərkəzi Afrika Respublikasının xarici işlər, frankofoniya və xaricdəki mərkəzi afrikalılar üzrə naziri Silvi Baypo-Temon ilə görüşüb. Tərəflər ikitərəfli münasibətlərin perspektivlərini müzakirə edib, Azərbaycanın Afrika ölkələri ilə əlaqələrin gücləndirilməsinə, həmçinin siyasi, iqtisadi, mədəni, təhsil və elm sahələrində əməkdaşlığın genişləndirilməsinə verdiyi strateji əhəmiyyəti vurğulayıblar. Həmçinin BMT, Afrika İttifaqı və digər çoxtərəfli platformalar çərçivəsində əməkdaşlıq məsələlərinə nəzər salınıb. Nazirlər Mərkəzi Afrika Respublikasından olan tələbələrin Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün nəzərdə tutulmuş təhsil təqaüdü proqramlarından yararlanmasını məmnunluqla qeyd ediblər. Bu yeni diplomatik əlaqələri rəsmiləşdirmək məqsədilə nazirlər "Azərbaycan Respublikası ilə Mərkəzi Afrika Respublikası arasında diplomatik əlaqələrin qurulması haqqında Birgə Kommünike"ni imzalayıblar.

Bundan başqa, xarici işlər naziri Ceyhun Bayramov Serbiyanın xarici işlər naziri Marko Curiç ilə görüşüb. Görüş zamanı nazirlər Azərbaycan və Serbiya arasında strateji tərəfdaşlıq münasibətlərinin mövcud vəziyyətini və inkişaf perspektivlərini, siyasi, iqtisadi, ticarət, enerji, nəqliyyat və humanitar sahələrdə əməkdaşlığı, həmçinin regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər. Nazirlər ikitərəfli gündəliyin irəlilədilməsində yüksəksəviyyəli təmasların, siyasi dialoqun və parlamentlərarası əlaqələrin, eləcə də Azərbaycan-Serbiya Strateji Tərəfdaşlıq Şurası, Hökumətlərarası Komissiya və xarici işlər nazirlikləri arasında müntəzəm siyasi məsləhətləşmələr kimi əsas mexanizmlərin mühüm rolunu vurğulayıblar.

### BQXK ilə Azərbaycan arasında əməkdaşlıq

Xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) prezidenti Miryana Spolyariç ilə görüşərək Azərbaycan və BQXK arasında əməkdaşlıq məsələlərini müzakirə edib. Tərəflər Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin hazırkı vəziyyəti, keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması istiqamətində səylər və itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsinin həyati əhəmiyyəti barədə fikir mübadiləsi aparıblar. Azərbaycan beynəlxalq humanitar hüquq və humanitar prinsiplərə sadiqliyini bir daha təsdiqləyib və qarşılıqlı maraqlara əsaslanan dialoqun vacibliyini vurğulayıb.

XİN rəhbəri BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində ABŞ Konqresinin üzvü Co Uilson ilə də görüşüb. Tərəflər Azərbaycan- ABŞ strateji münasibətlərinin perspektivləri, eləcə də uzunmüddətli regional təhlükəsizliyin, sülhün və sabitliyin təşviqi məqsədilə ABŞ Konqresi ilə institusional əməkdaşlığın gücləndirilməsi barədə fikir mübadiləsi aparıblar. Görüş zamanı Azərbaycanın regionda əsas roluna xüsusi diqqət yetirilib.









### Belarusla konsulluq məsələləri üzrə əməkdaşlıq...

Ceyhun Bayramov Belarusun xarici işlər naziri Maksim Rıjenkov ilə görüşərək, Azərbaycan-Belarus strateji tərəfdaşlığını və onun gələcək inkişaf perspektivlərini müzakirə edib. Tərəflər ikitərəfli əlaqələrin möhkəmləndirilməsində yüksəksəviyyəli siyasi dialoqun və hər iki ölkənin liderləri arasındakı təmasların, eləcə də ticarət-iqtisadi əməkdaşlığın inkişafında Birgə Hökumətlərarası Komissiyanın mühüm rolunu vurğulayıblar. Həmçinin BMT, MDB, Qoşulmama Hərəkatı və digər çoxtərəfli platformalar çərçivəsində sıx əlaqələndirmənin əhəmiyyəti qeyd olunub.

İkitərəfli danışıqlardan sonra nazirlər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Belarus Respublikasının Xarici İşlər Nazirliyi arasında 2027-2028-ci illər üçün Əməkdaşlıq Planı"nı imzalayıblar. Bundan əlavə, tərəflər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Belarus Respublikasının Xarici İşlər Nazirliyi arasında konsulluq məsələləri üzrə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu da imzalayıblar.

Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Barro ilə də görüşüb. Nazirlər ikitərəfli gündəliyi nəzərdən keçirib, Azərbaycan-Aİ münasibətlərini müzakirə edib, həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran məsələlər daxil olmaqla, əsas regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

### Azərbaycan-Aİ əməkdaşlıq gündəliyi müzakirə edilib

Xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində kiprli həmkarı Konstantinos Kombos ilə də görüşüb. Tərəflər siyasi dialoqun davam etdirilməsinin vacibliyini vurğulayıblar. Onlar, həmçinin Azərbaycan-Aİ əməkdaşlıq gündəliyi, regional proseslər, eləcə də Cənubi Qafqazda sülh və sabitliyin bərqərar edilməsi istiqamətindəki səylər ətrafında fikir mübadiləsi aparıblar.

Ceyhun Bayramov həmçinin Baham adalarının xarici işlər naziri Fred Miçell ilə görüşüb. Tərəflər ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf perspektivlərini müzakirə edib, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar, strateji dialoqun qurulmasının və qarşılıqlı faydalı əməkdaşlığın yeni sahələrinin araşdırılmasının vacibliyini vurğulayıb.

Səmərəli müzakirələrin yekununda nazirlər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Baham Adaları Birliyinin Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrə dair Anlaşma Memorandumu"nu imzalayıblar. Bu sənəd müntəzəm diplomatik təmasları təşviq edəcək və ikitərəfli tərəfdaşlığın inkişaf etdirilməsi üçün möhkəm zəmin rolunu oynayacaq.

### TRIPP davamlı regional sülhə töhfə verəcək...

BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov ABŞ hökuməti tərəfindən təşkil olunmuş "Sülh yolu ilə rifah: Trans-Xəzər ticarət marşrutu və TRIPP-ə investisiya qoyuluşu" adlı tədbirdə çıxış edərək, Azərbaycanın iqtisadi artımın, dayanıqlı təchizat zəncirlərinin və yeni investisiya imkanlarının hərəkətverici qüvvəsi kimi daha güclü regional əlaqələrə dair baxışını vurğulayıb. Tədbirdə əlaqəlilik, sülh quruculuğu və rifahı özündə birləşdirən layihə kimi TRIPP-ə xüsusi diqqət yetirilib. Qeyd olunub ki, tarixi Vaşinqton sammitinin əsas nəticələrindən biri olan TRIPP Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz multimodal əlaqəni təmin edəcək, daha geniş əlaqəliliyi gücləndirəcək və davamlı regional sülhə töhfə verəcək. Nazir layihənin həyata keçirilməsi prosesində ABŞ-ın göstərdiyi səylərə görə minnətdarlığını bildirib. Ceyhun Bayramov, həmçinin TRIPP-in regional enerji əlaqəliliyinin və şaxələndirilməsinin inkişaf etdirilməsi potensialını vurğulayıb. Bundan əlavə nazir Azərbaycanın Bakı Limanı və Ələt Azad İqtisadi Zonası əsasında formalaşan inteqrasiya olunmuş nəqliyyat və logistika qovşağına davamlı investisiyalarını qeyd edib. O, rəqəmsallaşmanın, sadələşdirilmiş logistika və gömrük prosedurlarının, eləcə də tərəfdaşlar arasında əlaqələndirilmiş fəaliyyətin vacibliyini vurğulayaraq, xüsusilə Qazaxıstan, Türkiyə və Gürcüstanla uğurlu əlaqələndirmə yol xəritələrini qeyd edib.

### Mali və Dominikan ilə Azərbaycan arasında anlaşma memorandumları imzalanıb

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İraq Baş nazirinin müavini və xarici işlər naziri Fuad Hüseyn ilə də görüşüb. Görüş zamanı Azərbaycan və İraq arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə edilib, tarixi dostluq və həmrəyliyə əsaslanan münasibətlərin daha da möhkəmləndirilməsi məqsədilə regional və beynəlxalq platformalarda qarşılıqlı dəstəyin əhəmiyyəti vurğulanıb.

Nazirlər, həmçinin çoxtərəfli platformalar çərçivəsindəki fəaliyyətləri, o cümlədən oktyabr ayında Azərbaycanda keçiriləcək Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) 7-ci Zirvə toplantısı və gələn il keçiriləcək İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Zirvə toplantısı ilə bağlı məsələləri müzakirə ediblər. Bundan əlavə, nazirlər geniş Yaxın Şərq regionundakı mürəkkəb vəziyyət ətrafında fikir mübadiləsi aparıblar.

Xarici işlər naziri Ceyhun Bayramov Dominikan Respublikasının xarici işlər naziri İto Bisono ilə görüşüb. Nazirlər münasibətlərin inkişaf perspektivlərini müzakirə edib və iki ölkənin xarici işlər nazirlikləri arasında siyasi dialoqun institusionallaşmasının vacibliyini vurğulayıblar. Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran ikitərəfli və çoxtərəfli məsələlər ətrafında fikir mübadiləsi aparıb, beynəlxalq təşkilatlar çərçivəsində əlaqələndirmənin gücləndirilməsi perspektivlərini qeyd ediblər. Görüşdən sonra nazirlər "Azərbaycan Respublikası Hökuməti ilə Dominikan Respublikası Hökuməti arasında adi pasport sahibləri üçün viza tələbindən qarşılıqlı azad etmə haqqında Saziş"i imzalayıblar.

Bundan əlavə, tərəflər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Dominikan Respublikasının Xarici Əlaqələr Nazirliyi arasında siyasi məsləhətləşmələr mexanizminin yaradılması haqqında Anlaşma Memorandumu"nu imzalayıblar. Bu yeni sazişlər institutsional çərçivənin genişləndirilməsinə və ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsinə əhəmiyyətli töhfə verəcək.

Ceyhun Bayramov Malinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Abdoulaye Diop ilə də görüşüb. Tərəflər Azərbaycan ilə Mali arasında münasibətlərin mövcud vəziyyəti və perspektivlərini müzakirə edib, xüsusilə siyasi dialoqun gücləndirilməsi, qarşılıqlı səfərlərin intensivləşdirilməsi və ikitərəfli əməkdaşlığın institusional əsaslarının möhkəmləndirilməsi məsələlərinə diqqət yetiriblər. BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstəyin daha da gücləndirilməsinin vacibliyi, eləcə də Azərbaycanın Afrika ölkələri və Afrika İttifaqı ilə əlaqələri genişləndirmək əzmi vurğulanıb. Ətraflı müzakirələrdən sonra nazirlər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Mali Respublikasının Xarici İşlər və Beynəlxalq Əməkdaşlıq Nazirliyi arasında siyasi məsləhətləşmələrə dair Anlaşma Memorandumu"nu imzalayıblar. Bu mühüm sənəd institusional əlaqələrin gücləndirilməsinə və ölkələr arasında ardıcıl, müntəzəm siyasi dialoqun təmin edilməsinə xidmət edəcək.

***SADİQ***

## Nyu-Yorkda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Yüksəksəviyyəli Görüşü təşkil olunub

Nyu-Yorkda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Ortaq gələcək naminə etimadın, əməkdaşlığın və qlobal sabitliyin bərpası" mövzusunda XXXVII Yüksəksəviyyəli Görüşünün birinci günü keçirilib.

BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində təşkil olunan ikigünlük toplantı dövlət və hökumət başçılarını, sabiq liderləri, beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndələrini və ekspertləri bir araya gətirib.

Birinci gün Monteneqro Prezidenti Yakov Milatoviç, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, BMT Baş katibinin müavini və BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos, BMT-nin Avropa İqtisadi Komissiyasının icraçı katibi Tatyana Molçan, BMT Baş katibinin sabiq müavini Vu Hunbo, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmayıl Seragəldin və digər yüksək səviyyəli şəxslər çıxış ediblər.

Çıxışlarda beynəlxalq sistemdə etimadın bərpası, çoxtərəfliliyin gələcəyi, beynəlxalq hüququn rolu, geosiyasi qarşıdurmalar, diplomatiya və qlobal səhiyyə sahəsində əməkdaşlıq məsələləri diqqət mərkəzində olub. T.A.Qebreyesus qlobal təhdidlər qarşısında əməkdaşlığın və dövlətlər arasında etimadın gücləndirilməsinin əhəmiyyətini vurğulayıb. M.A.Moratinos çoxqütblü dünyanın sülh üçün effektiv beynəlxalq institutlar və preventiv diplomatiya tələb etdiyini bildirib. T.Molçan Ukraynadakı müharibə, iqtisadi qeyri-müəyyənlik və iqlim risklərinin yaratdığı təzyiqlərə, Vu Hunbo isə suveren bərabərlik, beynəlxalq hüquq və çoxtərəflilik məsələlərinə toxunub.



Görüşün birinci günündə müzakirələr dörd əsas panel üzrə davam etdirilib.

"Güc siyasətinin geri qayıdışı və irəliyə doğru yol" mövzusunda paneldə dəyişən geosiyasi şərait, güc amilinin beynəlxalq münasibətlərə təsiri, mövcud münaqişələr, diplomatiyanın rolu və qlobal sabitliyin qorunması imkanları müzakirə olunub.

"Təzyiq altında çoxtərəflilik: beynəlxalq əməkdaşlığa yenidən baxış" mövzusunda paneldə beynəlxalq institutların dəyişən qlobal reallıqlara uyğunlaşdırılması, çoxtərəfli əməkdaşlığın effektivliyi və dövlətlər arasında etimadın bərpası ətrafında fikir mübadiləsi aparılıb.

"Borc, inkişaf və inkişaf etməkdə olan iqtisadiyyatların gələcəyi" mövzusunda paneldə artan borc yükü, inkişaf etməkdə olan ölkələrin maliyyə resurslarına çıxışı, beynəlxalq maliyyə sisteminin mövcud çağırışlara uyğunlaşdırılması və inkişafın maliyyələşdirilməsi məsələləri diqqət mərkəzində olub.

Paneldə çıxış edən BMT-Habitatın icraçı direktoru Ana Klaudiya Rossbax şəhərlərin və mənzil sektorunun maliyyələşdirilməsində mövcud çətinliklərdən danışıb. O, qarşıdakı onilliklərdə şəhərlərə gələcək təxminən iki milyard insanın ehtiyaclarının qarşılanması üçün dayanıqlı mənzil maliyyələşdirmə sistemlərinin yaradılmasının vacibliyini vurğulayıb.

Birinci günün digər paneli "Ambisiyadan yekun investisiya qərarınadək: COP31 iqlim öhdəliklərini necə investisiya imkanlarına çevirə bilər?" mövzusuna həsr olunub. Burada iqlim öhdəliklərinin konkret və maliyyələşdirilə bilən layihələrə çevrilməsi, özəl investisiyaların cəlbi, enerji, okeanlar, sıfır tullantı yanaşması və yeni texnologiyaların imkanları müzakirə edilib.

COP31-in iqlim üzrə yüksək səviyyəli çempionu, "Zero Waste Foundation"ın prezidenti Səməd Ağırbaş biznesin iqlim layihələrinə daha inamla sərmayə yatırması üçün əlverişli şəraitin yaradılmasının vacibliyini bildirib. O, süni intellekt də daxil olmaqla yeni texnologiyaların resurslardan daha səmərəli istifadəyə imkan verdiyini, COP31-in isə hökumətləri, investorları və biznesi bir araya gətirərək iqlim ambisiyalarını real investisiya imkanlarına çevirə biləcəyini qeyd edib.

XXXVII Yüksəksəviyyəli Görüş bu gün enerji təhlükəsizliyi, iqlim, süni intellekt və rəqəmsal suverenlik, çoxtərəfliliyin gələcəyi və qlobal səhiyyə məsələlərinə həsr olunan müzakirələrlə davam edəcək.

# Xarici investorlar üçün yeni fürsət

## Azərbaycan sərmayəçilərin dağ-mədən və metallurgiya sənayesində fəaliyyəti üçün güzəştlər tətbiq edəcək

"Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair 2027-2030-cu illər üçün Dövlət Proqramı"nın icrasında mühüm amillərdən biri investisiya mühiti və maliyyələşmə imkanlarının təmin edilməsidir. Dövlət Proqramının hədəflərinə çatmaq üçün investisiya mühitinin daha da təkmilləşdirilməsi qarşıda əsas hədəf kimi durur. Dövlət dəstəyi, investisiya təşviqləri və digər stimullaşdırıcı tədbirlər genişləndiriləcək, hüquqi və institusional baza müasir tələblərə uyğunlaşdırılacaq.

### Xarici şirkətlərlə açar sazişləri imzalanıb

Dağ-mədən və metallurgiya layihələri böyük kapital və uzunmüddətli maliyyə tələb edir. Maliyyələşmə imkanlarının genişləndirilməsi ən aktual məsələlərdən biridir. Təkcə bu sahə üzrə deyil, ümumilikdə sənaye sahəsinin qarşılaşdığı əsas çağırışlardan biri uzunmüddətli kreditlərə çıxışın mövcudluğudur. Xüsusilə nəzərə alsaq ki, dağ-mədən və metallurgiya layihələrində qərar qəbulundan və layihənin icrasına başlanmasından istehsala qədər ötən müddət 5 il və daha çox davam edir. Belə layihələr üçün uzunmüddətli maliyyələşmə imkanlarının olması xüsusi əhəmiyyət daşıyır. Bu, həm büdcə yükünün azaldılmasına xidmət edir, həm maliyyə ekosistemində, bank sistemində əlavə gəlirlərin yaradılmasını təmin edir. Bu baxımdan, 10 il və daha uzun müddətə kredit imkanlarının genişləndirilməsi, yerli bankların iri və uzunmüddətli layihələrin maliyyələşdirilməsində iştirakının artırılması vacibdir.



Dövlətlə yanaşı, özəl sektor, o cümlədən bank maliyyələşməsi daxil olmaqla, beynəlxalq maliyyə resurslarından daha geniş istifadə imkanları diqqətdən keçiriləcək. Azərbaycan İnvestisiya Holdinqi portfel şirkətləri vasitəsilə alüminium və digər metallurgiya layihələrinə cəlb olunacaq. Həmçinin özəl sektor yeni istehsal və emal güclərinə investisiya qoyuluşlarına cəlb ediləcək.

Burada xarici investorlarla milli hasilat şirkətimiz olan "AzerGold"la müştərək sazişlərin həyata keçirilməsi də istisna olunmur. Artıq xarici tərəfdaşlarla əməkdaşlığın ilk nümunəsi kimi "AzerGold" və Birləşmiş Ərəb Əmirliklərinin "Terra Mining Ltd" arasında "Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ərazisində mineral-xammal potensialının və mədən sahələrinin birgə qiymətləndirilməsi və kəşfiyyatı haqqında Saziş" imzalanıb. Sənədin şərtlərinə əsasən, Naxçıvanda yerləşən ehtiyatlarımızın birgə geoloji kəşfiyyatı həyata keçiriləcək. Bu, dağ-mədən sənayesində xarici investorlarla birgə fəaliyyətin açar sazişlərindən biri hesab olunur və bölgəyə ərəb səhmdarlarının gəlişini təmin edəcək.

### 4 ilə 5,3 milyard manat investisiya

Azərbaycanda sərmayə mühiti sağlam və minbitdir və bu amil investorlar üçün mühüm fürsət deməkdir. Prezident İlham Əliyev xarici investorlara mesaj verərək onlar üçün qapıların açıq olduğunu bəyan etdi. Bu, ən ali səviyyədə xarici biznes heyətinə verilən təminatdır. Sözsüz ki, xarici ölkələrin iri sənaye holdinqlərinin qızıl, gümüş, mis və digər yataqlara marağı böyükdür, çünki qiymətli metalların dünyada dəyəri durmadan artır, beynəlxalq səhmdarlar bu alətə böyük yatırımlar edir. Ona görə də, dağ-mədən sənayesində təmsil olunmaq xarici investorlar üçün həm gəlir əldə etmək, həm də qiymətli metal birjalarında əlavə imkanlar qazanmaq baxımından əlverişlidir. Üstəlik, Azərbaycan hökumətinin iqtisadi stimullar və güzəştlər tətbiq etməsi onlar üçün daha bir fürsət deməkdir.

2027-2030-cu illərdə proqram üzrə ümumi investisiya ehtiyacı 5,3 milyard manat qiymətləndirilir. Bu vəsaitin 1,1 milyard manatı dövlət büdcəsi hesabına, 2,2 milyard manatı dövlət müəssisələrinin vəsaiti, o cümlədən kredit, yəni borc kapitalı, 2 milyard manatı isə özəl vəsait, o cümlədən borc kapitalı hesabına formalaşacaq. Beləliklə, ümumi investisiyanın təxminən 80 faizi qeyri-büdcə mənbələrindən cəlb ediləcək. Bu baxımdan dövlət müəssisələrinin və özəl sektorun investisiya imkanlarının səfərbər edilməsi qarşımızda duran əsas məsələdir. Yaradılacaq yeni güclər hesabına növbəti 4 il ərzində sektorun əlavə dəyərinin və illik ixrac potensialının 2,6 dəfə artırılması nəzərdə tutulur. 2027-2030-cu illərdə yüksək nəticələrin əldə edilməsi üçün bu dövr ərzində ümumilikdə 5,3 milyard manat investisiya nəzərdə tutulur.

### Vahid tənzimləmə, əlaqələndirmə və nəzarət

Dövlət Proqramının layihəsində uğurlu icra üçün mühüm şərtlərdən biri də əsas icraçı qurumların koordinasiyalı fəaliyyətidir. Proqramın layihəsinə əsasən, ümumi tənzimləmə, əlaqələndirmə və nəzarət Nazirlər Kabineti tərəfindən həyata keçiriləcək. İqtisadiyyat Nazirliyi investisiya təşviqi, dövlət dəstəyi, sənaye siyasəti və sənaye infrastrukturunun inkişafını təmin etməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Yerin təki üzrə hüquqi bazanın, geoloji standartların və hesabatlılıq sisteminin təkmilləşdirilməsinə, həmçinin geoloji kəşfiyyatın həyata keçirilməsinə dəstək verəcək. SOCAR "Daşkəsən" dəmir filizi layihəsi və müvafiq klasterin təmin olunması üçün zəruri qaz infrastrukturu təmin edəcək.

Ümumilikdə, yerli və xarici investorların müştərək fəaliyyəti sayəsində Dövlət Proqramı müvafiq sahənin mineral-xammal bazasının genişləndirilməsi, müasir texnologiyaların tətbiqi ilə hasilat və emal gücünün artırılması, ekoloji dayanıqlılığın təmin edilməsi, insan kapitalının inkişafı və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu çərçivədə, xammaldan başlayaraq emal və yüksək əlavə dəyər yaradan son məhsuladək dəyər zəncirinin formalaşdırılması sənayeləşmənin dərinləşməsinə və ixrac potensialının artırılmasına xidmət edəcəkdir. Eyni zamanda, iri investisiya layihələrinin reallaşdırılması üçün özəl sektorun, o cümlədən xarici investorların cəlbi və dövlət-özəl əməkdaşlığı mexanizmlərinin genişləndirilməsi də təmin ediləcək.

*E.CƏFƏRLİ*



# Dövlət büdcəsinin təsnifatı dəyişir...

## 2028-ci ildən yeni qaydalar tətbiq olunacaq

Baş nazir Əli Əsədov "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarında dəyişiklik edilməsi haqqında qərar imzalayıb. Qərara əsasən, "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatı" və "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı" yeni redaksiyada təsdiqlənib. Dəyişiklik dövlət maliyyə inzibatçılığının və hesabatlılığın gücləndirilməsi, şəffaflığın artırılması, həmçinin büdcə vəsaitlərindən təyinatı üzrə istifadənin təmin edilməsi məqsədi daşıyır.

Hökumətin yeni qərarına əsasən, dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar, eləcə də icmal büdcə ilə əhatə olunan qurumlar 2028-ci ilin icmal və dövlət büdcəsi layihələri üzrə sifarişlərini yeni funksional və inzibati təsnifata uyğun hazırlayaraq Maliyyə Nazirliyinə təqdim etməlidirlər. Bununla yanaşı, Maliyyə Nazirliyi yeni təsnifatın 2027-ci ilin icmal və dövlət büdcəsi layihələri ilə bağlı sifarişlər əsasında test rejimində tətbiqi üçün aidiyyəti dövlət qurumları ilə birlikdə zəruri tədbirlər görəcək.

### Gəlir və xərclərin, kredit, həmçinin borc əməliyyatlarının vahid şəkildə qruplaşdırılması

İqtisadi inkişafın və maliyyə siyasətinin uğurla həyata keçirilməsi üçün dövlətin maliyyə resurslarının düzgün idarə olunması xüsusi əhəmiyyət daşıyır. Dövlətin və bələdiyyələrin gəlirləri, xərcləri və borc öhdəlikləri dəqiq və sistemli şəkildə qeydə alınmalıdır ki, şəffaflıq təmin olunsun və büdcə prosesləri izlənilə bilsin. Məhz buna görə də büdcə təsnifatı müasir maliyyə sistemlərinin ən vacib elementlərindən biri hesab olunur. Büdcə təsnifatı maliyyə resurslarının məqsədli, səmərəli və effektiv idarə olunmasına imkan verir, dövlət büdcəsi üzərində tam nəzarət və analitik təhlil üçün əsas yaradır.

Büdcə təsnifatı dövlət büdcəsində gəlir və xərclərin, habelə kredit və borc əməliyyatlarının vahid və sistemli şəkildə qruplaşdırılması, kodlaşdırılması və qeydiyyat sistemidir. Onun köməyi ilə dövlətin bütün maliyyə axınları şəffaf, izlənilə bilən və idarəolunan olur. Hər bir gəlir, xərc və öhdəlik təsnifat kodları ilə ayrılır, onların təyinatı, mənbəyi və funksiyası aydın şəkildə müəyyənləşdirilir. Bu, dövlət orqanlarının, maliyyə institutlarının və ictimaiyyətin büdcə axınlarını düzgün analiz etməsinə imkan verir.

Büdcə təsnifatı bütün dövlət və bələdiyyə qurumlarının büdcə planlaşdırması, icrası və hesabatlılığında istifadə olunur. Dövlət investisiyalarının istiqamətləndirilməsi, sosial proqramların maliyyələşdirilməsi, infrastruktur layihələrinin idarə olunması və ümumiyyətlə, büdcənin səmərəli idarə olunması təsnifat sistemindən asılıdır. Beynəlxalq maliyyə təşkilatları və donorlar üçün də təsnifat vacibdir, çünki bu, ölkədə şəffaflıq və hesabatlılığın əsas təminatıdır.

Büdcə təsnifatının məqsədi bütün maliyyə proseslərinin şəffaflığını və səmərəliliyini artırmaq, hesabatlılığı təmin etmək, büdcə icrasını və planlaşdırmanı asanlaşdırmaqdır. Hər bir kodun öz mənası və funksional rolu var.

### Məqsəd şəffaflığın və hesabatlılığın təmin edilməsidir

Vahid büdcə təsnifatı dövlət maliyyə sisteminin qanunvericilik aktları, o cümlədən, "Büdcə sistemi haqqında" qanun və Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq normativ sənədlərlə tənzimlənir. Dövlət büdcəsinin təsnifatı gəlir, xərc, funksional, iqtisadi, inzibati və mənbə təsnifatı olmaqla bir neçə növə bölünür. Hər bir təsnifat növü maliyyə vəsaitlərinin idarə olunması, məqsədli xərclər və gəlirlər üzrə qruplaşdırılmasını təmin edir.

Gəlir təsnifatı dövlət büdcəsinə daxil olan bütün vəsaitlərin mənbəyi və təyinatı üzrə qruplaşdırılmasıdır. Xərc təsnifatı isə büdcə xərclərinin sahələr, funksiyalar və proqramlar üzrə bölünməsini müəyyənləşdirir.

Funksional təsnifat dövlət büdcəsinin xərclərinin məqsəd və fəaliyyət istiqamətləri üzrə kodlaşdırılmasıdır. Məsələn, təhsil, səhiyyə, müdafiə, sosial təminat və s. üzrə xərclər ayrıca kod və bölmə ilə qeyd olunur.

İqtisadi təsnifat xərclərin və gəlirlərin iqtisadi məzmunu üzrə - əməkhaqqı, transferlər, investisiyalar, maddi-texniki təminat, subsidiya və s. üzrə qruplaşdırılmasıdır. Bu təsnifat maliyyə axınlarının iqtisadi mahiyyətinin aydınlaşdırılmasına kömək edir.

Gəlir təsnifatı dövlət büdcəsinə daxil olan vergi, rüsum, dövlət rüsumları, cərimələr, xüsusi ödənişlər və digər vəsaitlərin mənbəyinə görə kodlaşdırılır. Hər bir mənbənin öz kodu və təsnifat dərəcəsi var.

Xərc təsnifatı isə dövlət və bələdiyyə büdcələrindən çıxarılan vəsaitlərin istiqamətini, sahəsini və məqsədini aydın göstərir. Bütün xərclər rəsmi təsnifat kodu ilə müşayiət olunur.

İnzibati təsnifat dövlət orqanlarının və büdcə təşkilatlarının, yəni idarəedicilərin büdcədə ayrı-ayrı kodlar üzrə qeydiyyata alınmasını təmin edir. Hər dövlət orqanı, nazirlik, komitə və qurumun öz inzibati kodu mövcuddur.

Mənbə təsnifatı isə büdcənin hansı mənbədən formalaşdığını, yəni dövlət, yerli və xüsusi fondlar üzrə ayrılmasını göstərir. Bu təsnifat büdcə planlaşdırılmasında və maliyyələşdirmədə xüsusi rol oynayır. Ümumilikdə, vahid büdcə təsnifatının başlıca məqsədi şəffaflığın və dövlət maliyyəsinin idarə olunmasında hesabatlılığın təmin edilməsidir.

### Rəqəmsallaşma yeni təsnifat qaydalarını tələb edir

Müasir dövrdə dövlət büdcəsinin idarə olunmasında və hesabatlılığında təsnifat sisteminin avtomatlaşdırılması və rəqəmsallaşması böyük əhəmiyyət kəsb edir. Elektron hökumət sistemləri büdcə əməliyyatlarının daha dəqiq, şəffaf və səmərəli şəkildə idarə olunmasına imkan yaradır.

İqtisadi və sosial proseslərdə baş verən dəyişikliklər, yeni proqram və layihələrin maliyyələşməsi təsnifat kodlarının yenilənməsini tələb edir. Beynəlxalq standartlara uyğunlaşma və rəqəmsallaşma da yenilənməni şərtləndirir. Bu baxımdan Nazirlər Kabinetinin büdcə təsnifatı ilə bağlı yeni qaydalar tətbiq etməsi maliyyə vəsaitlərinin idarə olunmasında şəffaf, səmərəli və tam düzgün uçotunun təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

NK-nın yeni qərarında yer alan büdcə xərclərinin funksional və inzibati təsnifatına dair müddəaları 2028-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

*E.CƏFƏRLİ*

# Cənubi Qafqazın gələcək inkişaf trayektoriyası...

## Bu gün verilmiş qərarlardan keçir

Azərbaycanın postmüharibə dövründə nümayiş etdirdiyi siyasi davranış modeli beynəlxalq münasibətlər sistemində nadir və diqqətəlayiq nümunələrdən biri kimi qiymətləndirilir. Tarixən müharibələrdən qalib çıxan dövlətlərin məğlub tərəfi siyasi və iqtisadi təzyiqlər altında saxlamağa çalışması tez-tez rast gəlinən praktika olub - Azərbaycan isə 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi qələbədən sonra tamamilə fərqli bir yol seçdi. Bakı regionun əbədi sabitliyi və inkişafı naminə sülh, əməkdaşlıq və inteqrasiya xəttini prioritet elan etdi.

Müharibədən dərhal sonra irəli sürülən sülh təşəbbüsləri, sülh konsepsiyası, kommunikasiyaların açılması, regional iqtisadi əməkdaşlıq ideyaları Azərbaycanın strateji baxışının göstəricisidir. Bu yanaşma Cənubi Qafqazın illərlə üzərində formalaşmış "konfrontasiya bölgəsi" imicinin dəyişdirilməsini hədəfləyir. Bakı açıq şəkildə bəyan edir ki, region əməkdaşlıq və qarşılıqlı fayda məkanına çevriləcək.

Məhz Azərbaycanın təşəbbüskarlığı və prinsipial mövqeyi nəticəsində bu gün Cənubi Qafqaz qlobal güc mərkəzlərinin diqqətindədir. Şərqlə Qərb arasında yeni uzlaşma coğrafiyası, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsi kimi regionun geosiyasi əhəmiyyəti sürətlə artır. Bu kontekstdə sülhün yalnız regional deyil, qlobal təhlükəsizlik üçün də vacib amil olduğu aydın görünür. Ötən ilin avqustunda Vaşinqtonda keçirilən üçtərəfli görüş isə Azərbaycanın memarı olduğu sülh gündəliyinin beynəlxalq platformada real siyasi məzmun qazandığını təsdiqləyən mühüm hadisə kimi tarixə düşdü.

**Real Zəngəzur dəhlizi layihəsi, yoxsa 2 qəpiklik "sülh kəsişməsi" nağılı...**

Birmənalı şəkildə məhz Azərbaycanın təşəbbüskarlığı və prinsipial mövqeyi nəticəsində bu gün Cənubi Qafqaz qlobal güc mərkəzlərinin diqqətindədir.

Maraqlıdır ki, Ermənistan Vaşinqton görüşündən ötən bir il ərzində sülhün daha da möhkəmlənməsi, sazişin imzalanması, regionda Azərbaycanın liderliyi və iradəsi ilə formalaşan

### Bakı sülh üçün münbit şərait formalaşdırıb

Şərqlə Qərb arasında yeni uzlaşma coğrafiyası, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsi kimi regionun geosiyasi əhəmiyyəti sürətlə artır. Bu kontekstdə sülhün yalnız regional deyil, qlobal təhlükəsizlik üçün də vacib amil olduğu aydın görünür. Ötən ilin avqustunda Vaşinqtonda keçirilən üçtərəfli görüş isə Azərbaycanın memarı olduğu sülh gündəliyinin beynəlxalq platformada real siyasi məzmun qazandığını təsdiqləyən mühüm hadisə kimi tarixə düşdü. Qeyd olunduğu kimi, sülh sazişi layihəsi paraflanması tərəflərin prinsipial məsələlərdə yaxınlaşdığını göstərdi. Hazırkı situasiya hətta Ermənistan üçün də yeni imkanlar vəd edir. Regional inteqrasiya, nəqliyyat xətlərinin açılması, Zəngəzur dəhlizinin (TRIPP) reallaşması və iqtisadi əməkdaşlıq platformalarının genişlənməsi Ermənistan iqtisadiyyatında ciddi canlanma yarada bilər. Azərbaycanla ticarət əlaqələrinin qurulması, enerji və neft məhsullarının ixracı reallığı da bu yeni mərhələnin nəticələri kimi qiymətləndirilə bilər.

### "Sülh kəsişməsi" kimi gərəksiz uydurmalar

situasiyanın oturuşması üçün səfərbər olmaq əvəzinə, yenə də "özünəməxsus" yalanlar tirajlamağa, regional gündəliyin detalları üzərində manipulyasiya yaratmağa, bununla da ya vaxt udmağa, ya da prosesdən əlavə qazanc əldə etməyə niyyətlənib. Ermənistanın Baş naziri Nikol Paşinyanın BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində danışdığı "nağıllar" da bunu sübut edir. "Sülh kəsişməsi" kimi "2 qəpiklik" ideyaları qlobal ictimaiyyətə sırımağa çalışan Paşinyan etiraf etmək istəmir ki, dünya ictimaiyyəti məhz Azərbaycanın irəli sürdüyü Zəngəzur dəhlizi layihəsi üzərindən bölgəyə diqqət yetirir. Faktiki olaraq, ABŞ-da imzalanan üçtərəfli sənəddə bütün məsələlər Zəngəzur dəhlizi (TRIPP) üzərindən tənzimlənir - bu ideya isə birmənalı şəkildə Azərbaycanındır. Ermənistan real sülh tərəfdarıdırsa, bu kimi gərəksiz ritorikanı bir kənara qoymalı, Zəngəzur dəhlizi (TRIPP) layihəsinin gerçəkləşməsi üçün əlindən gələni əsirgəməməlidir. Azərbaycan layihənin öz ərazisindən keçən hissələrini tam hazır vəziyyətə gətirir. Ermənistan isə hələ də real sülh situasiyasına "sülh kəsişməsi" kimi gərəksiz uydurmalarla zərbə vurur.




### İrəvan yaxın zamanda konstitusiyasında dəyişikliklər etməlidir...

Ermənistanın siyasi rəhbərliyi bu kimi ucuz manipulyasiyalara əl atmaqdansa, Azərbaycanın siyasi iradəsi əsasında indiyə qədər uğurlu yol qət edən sülh prosesinin son nəticəyə qədəm qoyması üçün addımlar atmalıdır - xüsusilə, Ermənistan Konstitusiyasında Azərbaycan ərazilərinə qarşı iddiaların aradan qaldırılması kimi bir addım zəruri xarakter daşıyır. Əgər tərəflər bir-birinin ərazi bütövlüyünü tanıyırsa, bu prinsip əsas qanunvericilikdə də öz əksini tapmalıdır. Daimi sülh üçün, həm də hüquqi baza möhkəm olmalıdır. Konstitusiya dəyişiklikləri, normativ sənədlərin uyğunlaşdırılması və cəmiyyətin sülhə hazırlanması bu prosesin ayrılmaz hissəsidir. Əks halda, imzalanacaq sənəd uzunömürlü olmaya bilər. Bu baxımdan, sülh müqaviləsi regionun gələcəyi üçün həlledici sənəd olacaq. O, yalnız iki ölkə arasında münasibətləri tənzimləməyəcək, həm də Cənubi Qafqazın gələcək inkişaf trayektoriyasını müəyyən edəcək. Beləliklə, indi əsas məsələ sülh prosesini hüquqi cəhətdən rəsmiləşdirmək və geridönməz etməkdir. Əgər Ermənistan həqiqətən də ən yaxın zamanda sülh müqaviləsini imzalamaqda maraqlıdırsa, o zaman institusional səviyyədə (parlamentdə və ya Konstitusiya Məhkəməsində) konkret addımlar atmalı, Konstitusiyasında dəyişikliklər etməli, ərazi iddiaları aradan qaldırılmalıdır. Bu addımlar atılarsa, sülh sənədi formal deyil, real təminata çevriləcək. Belə olan halda isə hər hansı bir manipulyasiya və ya yalana da ehtiyac qalmayacaq - bölgə üçün yeni bir gələcək formalaşacaq.

### Ermənistan sözdə "sülh" desə də...

Göründüyü kimi, Ermənistanın siyasi rəhbərliyi bəzi hallarda sözdə sülhə dəstək nümayiş etdirdiyini bildirsə də, beynəlxalq platformalarda səslənən bu kimi çıxışlar sülh prosesinə ciddi kölgə salır. Bu tip çıxışlar Ermənistanın sülh prosesində səmimiyyətinə dair suallar yaradır. Bir tərəfdən sülhdən danışmaq, digər tərəfdən beynəlxalq tribunalarda yalanlarla dünya ictimaiyyətinin "gözünə kül üfürmək" şəklində fikirlər səsləndirmək konstruktiv xətt deyil. Bu, həm də Ermənistanın öz mövqeyini zəiflədən amildir.

Nəticə etibarilə, Cənubi Qafqazın gələcəyi bu gün verilən qərarlardan asılıdır. Azərbaycan qalib dövlət olaraq sülh yolunu seçib və bu yolun memarı kimi çıxış edir. Bakı revanşizmə yox, əməkdaşlığa, təcridə yox, inteqrasiyaya üstünlük verir. Ermənistan isə bu çağırış qarşısında tarixi seçim etməlidir.

*Pərviz SADAYOĞLU*

# Nyu-Yorkda və Vaşinqtonda mühüm müzakirələr...

## Orta Dəhlizin inkişafı, TRİPP və regional əməkdaşlığın önəminə toxunulub

Nyu-Yorkda Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə "Orta Dəhliz boyunca bağlantı, maliyyə və enerji" mövzusunda 7-ci Xəzər Biznes-Forumu keçirilib.

BMT Baş Assambleyasının sessiyası çərçivəsində keçirilən tədbirdə ABŞ, Azərbaycan və regionun digər ölkələrindən rəsmilər, diplomatlar, biznes nümayəndələri və ekspertlər iştirak ediblər. Xəzər Siyasət Mərkəzinin prezidenti Əfqan Nifti bildirib ki, Azərbaycan ötən il Daşkənd Sammitində Mərkəzi Asiya ölkələrinin Məşvərət Görüşlərinə qoşulmaqla formatın C5-dən C6-ya genişlənməsinə töhfə verib və bu mühüm hadisə Mərkəzi Asiya ilə Cənubi Qafqaz arasında bağlantıları daha da gücləndirir.

ABŞ Dövlət Departamentinin rəsmisi Mark Kameron Vaşinqtonun Mərkəzi Asiya və Cənubi Qafqaza diqqətinin hədsiz dərəcədə yüksək olduğunu, bölgəni birləşdirən Trans-Xəzər fiber-optik kabel layihəsinin rəqəmsal bağlantı üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb. Departamentin digər rəsmisi Piter Andreoli Azərbaycan və Ermənistan arasında əldə olunan irəliləyişin regionda daha güclü iqtisadi əlaqələrin qurulması üçün yeni imkanlar yaratdığını, TRIPP layihəsinin Orta Dəhlizin mühüm bağlantılarından birinə çevriləcəyini vurğulayıb.

### TRIPP regionda iqtisadi rifaha, sülh və sabitliyə töhfə verəcək

Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev bölgədə qurulan səmərəli regional bağlantıların Azərbaycan, Mərkəzi Asiya və digər region dövlətləri üçün dayanıqlı təchizat zəncirlərinin möhkəmlənməsinə, yeni ticarət və investisiya imkanları yaratmasına səbəb olduğunu diqqətə çatdırıb. Bu istiqamətdə Bakı Limanının genişləndirilməsi, Ələt Azad İqtisadi Zonasının və Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi və TRIPP-in yaradılması istiqamətində təşəbbüslərin iqtisadi əməkdaşlıqla yanaşı, regionda sülh və sabitliyə də töhfə verəcəyinə əminliyini ifadə edib.

Gürcüstan xarici işlər nazirinin müavini Laşa Darsaliya, Qazaxıstan Prezidentinin ABŞ ilə danışıqlar üzrə nümayəndəsi Yerjan Kazıxan,Türkiyə xarici işlər nazirinin müavini Berris Ekinci və digər çıxış edən natiqlər bildiriblər ki, Orta Dəhliz nəhəng iqtisadi-ticari-nəqliyyat arteriyası kimi bütün region ölkələrinin gələcəyinə yönəlmiş strateji marşrut, səmərəli imkandır. Avrasiyanı birləşdirən bu marşrut birgə əməkdaşlıqların və qarşılıqlı etimadın nümunəsidir.




### Çin-Avropa marşrutu üzrə yüklərin çatdırılma müddəti 3 dəfə azalıb

Orta Dəhlizlə bağlı digər maraqlı müzakirələr Vaşinqtonda ABŞ-Azərbaycan Ticarət Palatasının (USACC) təşkil etdiyi dəyirmi masada aparılıb. Bu nəqliyyat bağlantısının maliyyələşməsində əsas donorlardan biri olan Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Reyçel Prays marşrutun etibarlılığının artırılması üçün zəruri olan investisiyalara və əməliyyat təkmilləşdirmələri, o cümlədən dəmir yolu və liman əlaqələrinin gücləndirilməsi, sərhəd prosedurlarının səmərəliliyinin artırılması, logistika sahəsində koordinasiyanın və rəqəmsallaşmanın təmin edilməsi imkanlarından bəhs edib. Bildirib ki, bu təşəbbüslər Orta Dəhlizə artan marağın Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa ölkələrində ticarət və investisiya imkanlarına çevrilməsinə şərait yaradır.

Çıxış edən digər ekspertlər Orta Dəhlizdə aparılan islahatların ən mühüm nəticələrindən biri kimi yüklərin daşınma müddətinin əhəmiyyətli dərəcədə azalmasına diqqət çəkiblər. Bir neçə il əvvəl Çin-Avropa marşrutu üzrə yüklərin çatdırılması 38-53 gün çəkirdisə, hazırda bu müddət orta hesabla 12 gün təşkil edir. Müddətin bu qədər azalması elektron icazələrin və e-TIR, e-CMR də daxil olmaqla rəqəmsal alətlərin tətbiqi, yüklərin real vaxt rejimində izlənilməsi, gömrük və sərhəd prosedurlarının optimallaşdırılması, eləcə də dövlət qurumları arasında məlumat mübadiləsinin sürətləndirilməsi sayəsində mümkün olub.

Dünya ticarətinin getdikcə daha çevik, şaxələndirilmiş və çoxqatlı xarakter aldığı bir şəraitdə Orta Dəhliz formalaşmaqda olan Avrasiya ticarətinin arxitekturasının əsas elementlərindən birinə çevrilmək üçün tarixi imkan əldə edir. Marşrut xəritədə iki nöqtəni birləşdirən sadə tranzit arteriyası çərçivəsindən tədricən çıxaraq daha geniş iqtisadi ekosistemə çevrilir, genişlənən şəbəkə boyunca yeni ticarət axınlarını, investisiyaları, infrastruktur layihələrini və logistika xidmətlərini özünə cəlb edir.

### "Yaşıl dəhlizlər"i sistemi qurulub

Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqının (IRU) baş katibi Həbib Turki Orta Dəhlizin Asiya və Cənubi Qafqaz bölgəsi ilə yanaşı, Mərkəzi və Şərqi Avropa ölkələrinin Çinlə logistika sahəsində əməkdaşlığına verdiyi potensial dəyərlərə toxunub. Bildirib ki, prosedurların uyğunlaşdırılması, dövlət və özəl sektorlar arasında daha sıx əməkdaşlıq Çin ilə Mərkəzi və Şərqi Avropa ölkələri arasında ticarətin daha da artmasına şərait yaradır. 2026-cı ilin əvvəlində Çinin TIR sisteminin tətbiq dairəsini genişləndirməsi elektron ticarəti, eləcə də gömrük nəzarəti altında olan malların daşınmasında əlçatanlığı artırıb. Hazırda TIR sistemində qeydiyyatdan keçmiş 3700-dən çox nəqliyyat vasitəsi Mərkəzi Asiya, Qafqaz və Türkiyə üzərindən 60-dan çox sərhədi keçərək 120-dən artıq marşrutla Çindən Mərkəzi və Şərqi Avropa ölkələrinə yükdaşıma həyata keçirir. Orta Dəhlizdə prosedurların sadələşdirilməsi istiqamətində işlər davam etdirilir və Çinin əsas sərhəd-keçid məntəqələrində TIR "Yaşıl dəhlizləri" sistemi qurulub. Yeri gəlmişkən, TIR sistemi çərçivəsində gömrük tranziti rejimindən istifadə etməklə Çindən Azərbaycana malların daşınması 15 gün çəkir ki, bu da analoji dəniz daşımaları üçün tələb olunan müddətdən iki dəfə azdır.

*E.CƏFƏRLİ*

# İƏT-ə üzv dövlətlər Düşənbə Bəyannaməsini qəbul edib



İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olan dövlətlər “Regional sənaye əməkdaşlığının canlandırılması üzrə Düşənbə Bəyannaməsi”ni qəbul edib.

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, bu bəyannamə Tacikistanın paytaxtı Düşənbədə keçirilən İƏT-in sənaye nazirlərinin 4-cü iclasında qəbul olunub.

Ölkəmizi iclasda iqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov təmsil edib. Tədbirdə çıxış edən S.Ələkbərov Azərbaycanın İƏT ilə əməkdaşlığın inkişafına və üzv dövlətlər arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsinə xüsusi önəm verdiyini bildirib. Vurğulanıb ki, İƏT çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün əhəmiyyətli potensial mövcuddur.

Tədbirdə Azərbaycanın sənaye və investisiya potensialı, ölkəmizdə biznes və sahibkarlıq fəaliyyətinin dəstəklənməsi istiqamətində görülən işlər barədə məlumat verilib. Rəqabətqabiliyyətli və ixracyönümlü istehsalın inkişafı, sənaye zonalarının fəaliyyəti və bu sahədə tətbiq olunan dəstək mexanizmləri, eləcə də rəqəmsallaşma və insan kapitalının inkişafı istiqamətində keçirilən tədbirlər qeyd edilib.

Təşkilata üzv ölkələrin aidiyyəti dövlət qurumlarının rəhbər şəxslərinin iştirakı ilə keçirilən iclasda regional sənaye əməkdaşlığı, investisiya, nəqliyyat-logistika, ticarət bağlantılarının gücləndirilməsi barədə fikir mübadiləsi aparılıb. İclasda “Regional sənaye əməkdaşlığının canlandırılması üzrə Düşənbə Bəyannaməsi” qəbul edilib.

Qeyd edək ki, İƏT 1964-cü ildə yaradılıb. Ölkəmiz 1992-ci ildən təşkilatın üzvüdür. Üzv dövlətlərin davamlı iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatın və ticarətin liberallaşdırılması, regiondaxili ticarətin təşviqi məqsədilə yaradılmış təşkilatın 10 üzvü var.

# Lavrov və Rubio hansı məsələləri müzakirə ediblər?



Rusiyanın xarici işlər naziri Sergey Lavrov və ABŞ Dövlət katibi Marko Rubio Nyu-Yorkda danışıqlar aparıblar. Görüş zamanı Ukrayna məsələsinin nizamlanması və ikitərəfli münasibətlərlə yanaşı, Cənubi Qafqazdakı vəziyyət də müzakirə olunub.

AZƏRTAC xəbər verir ki, görüş BMT Baş Assambleyasının 81-ci sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində keçirilib. Danışıqlar qapalı formatda baş tutub və 50 dəqiqədən çox davam edib.

Görüşün yekunlarına dair Rusiya Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, əsas müzakirə mövzularından biri Ukrayna məsələsinin nizamlanması olub. Rusiya Xarici İşlər Nazirliyinin bildirdiyinə görə, S.Lavrov Kiyevin və onun Avropadakı tərəfdaşlarının fəaliyyəti ilə bağlı Moskvanın mövqeyini diqqətə çatdırıb. Rusiya tərəfi, həmçinin siyasi-diplomatik vasitələrdən istifadə etməklə və münaqişənin ilkin səbəblərini aradan qaldırmaqla bəyan etdiyi məqsədlərə nail olmaq əzmini təsdiqləyib. Beynəlxalq və regional məsələlərə də xüsusi diqqət ayrılıb.

“Beynəlxalq və regional məsələlər arasında Yaxın Şərqdə, Latın Amerikası və Karib hövzəsi regionunda vəziyyətə toxunulub”, - deyə Rusiya Xarici İşlər Nazirliyinin məlumatında qeyd olunur.

Tərəflər, həmçinin ilin sonunadək keçirilməsi nəzərdə tutulan “Böyük iyirmilik” qrupunun tədbirlərinə hazırlığı və beynəlxalq hüquq gündəliyinə dair bir sıra məsələləri nəzərdən keçiriblər.

Danışıqların əhəmiyyətli hissəsi Rusiya-ABŞ münasibətlərinə həsr olunub. Moskva Rusiya və ABŞ prezidentlərinin əldə etdiyi razılaşmalara uyğun olaraq münasibətlərin mümkün qədər tez normallaşdırılmasının zəruriliyini vurğulayıb.

Görüşün yekununda S.Lavrov və M.Rubio müzakirə olunan məsələlər üzrə Rusiya və ABŞ-ın xarici siyasət qurumları arasında təmasları davam etdirmək barədə razılığa gəliblər.

Bundan əvvəl Rusiya Xarici İşlər Nazirliyindən bildirilmişdi ki, danışıqlar zamanı Moskva və Vaşinqton arasında əməkdaşlığın BMT platformasında da müzakirə olunması nəzərdə tutulub.

# Maka Boçorişvili: Gürcüstan 2027-ci ildə ATƏT-ə sədrlik etməyə hazırdır



Gürcüstan 2027-ci ildə ATƏT-ə sədrlik etməkdə maraqlıdır və təşkilatın bütün üzv dövlətləri ilə əməkdaşlığa hazırdır.

AZƏRTAC xəbər verir ki, bunu Gürcüstan Baş nazirinin müavini, xarici işlər naziri Maka Boçorişvili BMT Baş Assambleyasının 81-ci sessiyasının yüksəksəviyyəli həftəsi çərçivəsində ATƏT-ə üzv dövlətlərin nümayəndələri üçün təşkil olunan qəbulda bildirib.

Nazir Gürcüstanın 2027-ci ildə ATƏT-ə sədrlik üçün namizədliyini irəli sürdüyünü və bu istiqamətdə üzv dövlətlərin dəstəyinə ümid etdiyini bildirib.

Onun sözlərinə görə, Avropada təhlükəsizlik məsələləri hazırda ciddi təzyiqlərlə üzləşir və belə şəraitdə dialoq və əməkdaşlığın əhəmiyyəti daha da artır.

“Suverenliyə hörmət, dialoq, münaqişələrin sülh yolu ilə həlli, beynəlxalq hüquq və normalara riayət, eləcə də götürülmüş öhdəliklərin yerinə yetirilməsi təhlükəsizliyin əsasını təşkil edir”, - deyə M.Boçorişvili vurğulayıb.

# İqtisadiyyatın hərəkətverici qüvvəsi...

## Azad sahibkarlıq yeni iqtisadi mərhələnin əsas şərtidir

İqtisadiyyatın dayanıqlılığını yalnız statistik rəqəmlərlə ölçmək mümkün deyil. Bəzən bir ölkənin iqtisadi dinamizmini anlamaq üçün küçələrdəki kiçik mağazalara, yeni açılan emalatxanalara, xidmət sahəsində yaranan innovativ ideyalara və öz biznesini qurmaq üçün riskə gedən insanların sayına baxmaq kifayətdir. Çünki iqtisadiyyatın real enerjisi məhz təşəbbüsdə, rəqabətdə və insanın öz əməyinə güvənərək qərar verməsində üzə çıxır.

Bu mənada, azad sahibkarlıq yalnız biznes qurmaq imkanını ifadə etmir. O, iqtisadi düşüncənin, məsuliyyətin və təşəbbüskarlığın formalaşdığı mühitdir. İnsan öz ideyasını reallaşdırmaq, məhsulunu bazara çıxarmaq, xidmət göstərmək və qazanc əldə etmək imkanına malik olduqda iqtisadi proseslərin sadəcə iştirakçısına deyil, həm də yaradıcısına çevrilir.

### Rəqabət varsa, inkişaf da var...

Məlumdur ki, rəqabətin olmadığı bazarda istehlakçının seçimi daralır, biznesin yenilik etmək motivasiyası zəifləyir. Rəqabət isə şirkətləri daha keyfiyyətli məhsul istehsal etməyə, xidmət səviyyəsini yüksəltməyə, xərcləri optimallaşdırmağa və yeni texnologiyalara yatırım etməyə sövq edir. Bu baxımdan, liberal iqtisadiyyatın mahiyyətini yalnız “daha çox sərbəstlik” anlayışı ilə məhdudlaşdırmaq doğru olmaz. Burada söhbət həm də məsuliyyətli rəqabət mühitindən gedir. Bazar iştirakçısı bilməlidir ki, uğur yalnız bazarda üstün mövqeyə sahib olmaqla deyil, istehlakçıya real dəyər yaratmaqla əldə edilir.

İstehlakçının seçimi genişləndikcə, sahibkar üçün də tələb artır: daha yaxşı məhsul, daha münasib qiymət, daha çevik xidmət və daha güclü reputasiya. Nəticədə, rəqabət təkcə şirkətlərin deyil, bütövlükdə, iqtisadiyyatın keyfiyyətini yüksəldir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti üzrə hazırlanmışdır**

### Yeni iqtisadi mərhələnin əsas şərti

Bu gün sahibkarlığın qarşısında əvvəlki dövrlərdən fərqli imkanlar var. Rəqəmsallaşma, elektron ticarət, süni intellekt və yeni maliyyə texnologiyaları biznesə bazara daha sürətli çıxmaq imkanı yaradır. Artıq kiçik şirkət yalnız öz şəhərinin və ya ölkəsinin bazarı ilə kifayətlənməyə bilər, düzgün strategiya ilə məhsulunu qlobal müştəriyə təqdim etmək imkanına malikdir. Belə bir şəraitdə sahibkarlıq siyasətinin məqsədi yalnız yeni müəssisələrin sayını artırmaq olmamalıdır. Əsas hədəf rəqabət qabiliyyətli, məhsuldar və innovativ bizneslərin yaranmasına şərait yaratmaqdır.





### Sağlam rəqabət iqtisadiyyatın məhsuldarlığını artırır

İqtisadçı Eldəniz Əmirov “Yeni Azərbaycan”a açıqlamasında qeyd edib ki, azad sahibkarlığın təşviqi iqtisadi siyasətin ayrıca istiqaməti olmaqla yanaşı, dayanıqlı inkişafın əsas dayaqlarından biridir. Onun sözlərinə görə, sahibkarın iqtisadi prosesdə əsas üstünlüyü bazarın real ehtiyaclarını daha çevik müəyyən edə bilməsidir: “Azad sahibkarlıq mühiti iqtisadiyyatda təşəbbüsün və rəqabətin önünü açır. Sahibkar bazarın siqnallarına uyğun qərar verir, risk götürür, investisiya edir, yeni məhsul və xidmətlər yaratmağa çalışır. Bu proses nə qədər sağlam rəqabət şəraitində baş verirsə, iqtisadiyyatın məhsuldarlığı da bir o qədər yüksəlir”.



# Aİ təsdiqlədi...

## Ukraynaya 3 milyard avroya yaxın vəsait veriləcək

Avropa İttifaqı (Aİ) Şurası “Ukraine Facility” proqramı üzrə səkkizinci müntəzəm tranş çərçivəsində Ukraynaya təxminən 3 milyard avro, o cümlədən ilk dəfə olaraq Kiyevə dəstək krediti vəsaitlərindən təqribən 800 milyon avro ayrılmasını təsdiqləyib.

Bu barədə Aİ Şurasının bəyanatında bildirilib.

Vəsaitlər Ukraynanın makromaliyyə sabitliyinin qorunub saxlanmasına, ölkənin bərpasına və modernləşdirilməsinə, dövlət idarəçiliyinin işinə və islahatların həyata keçirilməsinə yönəldiləcək.

Tranşı almaq üçün Ukrayna proqramla nəzərdə tutulmuş 10 hədəf göstəricini yerinə yetirib. Ümumilikdə Kiyev indiyədək yerinə yetirilməli olan 95 göstəricidən 84-nü və ya təxminən 88 faizini icra edib.

Aİ Şurası Ukraynaya dəstək planına da dəyişiklik edib. Plana Norveçin 1 milyard Norveç kronu (təxminən 92 milyon avro) məbləğində əvəzsiz könüllü töhfəsi daxil edilib.

Norveç Aİ-yə üzv olmayan ölkələr arasında Ukraynaya dəstək üzrə Ukrayna Planı vasitəsilə yardımı nəzərdə tutan “Ukraine Facility” proqramının ilk komponentinə vəsait ayıran ilk ölkə olub. Böyük Britaniya isə daha əvvəl proqramın ikinci komponenti olan “Ukraine Investment Framework” çərçivəsində 17 milyon avrodan çox vəsait ayırıb.

Yeni tranş köçürüldükdən sonra Ukraynanın 2024-cü ilin ortalarından etibarən “Ukraine Facility” çərçivəsində aldığı vəsaitin ümumi həcmi 32 milyard avronu ötəcək.

Həcmi 50 milyard avrodan çox olan “Ukraine Facility” proqramı 2027-ci ilə qədər nəzərdə tutulub və Ukraynanın bərpası, yenidən qurulması və modernləşdirilməsi üçün qrant və kreditləri nəzərdə tutur. Bu məbləğin təxminən 40 milyard avrosu Ukrayna Planında nəzərdə tutulan islahatlar və investisiyalar üçün ayrılıb.

### Sahibkarın uğuru yalnız onun qazancı deyil

İqtisadçı hesab edir ki, liberal iqtisadiyyatın səmərəli işləməsi üçün ilk növbədə mülkiyyət hüququnun etibarlı qorunması, rəqabət mühitinin gücləndirilməsi və biznes qərarları üçün proqnozlaşdırıla bilən iqtisadi çərçivənin yaradılması vacibdir. “Burada dövlətin funksiyasını düzgün müəyyənləşdirmək xüsusilə önəmlidir. Dövlət biznesin yerinə qərar verən subyektə deyil, ədalətli rəqabətin qaydalarını qoruyan və iqtisadi fəaliyyət üçün sağlam mühit yaradan instituta çevrilməlidir. Sahibkarın uğuru isə yalnız onun öz qazancı deyil. Uğurlu biznes yeni iş yerləri, vergi gəlirləri, əlavə investisiya və yeni iqtisadi imkanlar deməkdir”.

### Əsas meyar şirkətlərin sayı yox, keyfiyyətidir

Ekspertin fikrincə, qarşıdakı mərhələdə sahibkarlığın dəstəklənməsi kəmiyyət göstəricilərindən daha çox, keyfiyyət meyarları üzərində qurulmalıdır: “Əsas məsələ neçə yeni şirkətin yaradılması deyil, onların nə qədər dayanıqlı, innovativ və rəqabətqabiliyyətli olmasıdır. Müasir iqtisadiyyatda üstünlük daha çox resursa sahib olan deyil, dəyişikliklərə daha sürətli uyğunlaşan, texnologiyadan səmərəli istifadə edən və istehlakçıya daha yüksək dəyər təqdim edən bizneslərə keçir. Buna görə azad sahibkarlığın təşviqi eyni zamanda innovasiyanın, insan kapitalının və məhsuldarlığın təşviqi deməkdir”.

*Yeganə BAYRAMOVA*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Beynəlxalq Əczaçılar Günüdür

Beynəlxalq Əczaçılar Günü 2009-cu ilin 25 sentyabr tarixində Beynəlxalq Əczaçılıq Federasiyası (International Pharmaceutical Federation) tərəfindən İstanbulda keçirilən Konqresdə təsis edilib.

Bu günün qeyd edilməsi dünyada səhiyyə sistemində əczaçıların rolunun önəmini anlamağa imkan verir.

Xəstə hər hansı bir dərmanı əldə edənə kimi, onu bütün mərhələlərdə bir əczaçı müşayiət edir. Bu mütəxəssisin işi dərman vasitələrinin məsuliyyətli istifadəsinə zəmanət verməkdir.

Hər gün bütün dünyada farmasiya elminin və praktikasının minlərlə nümayəndəsi dərman vasitələrinin təhlükəsiz, effektiv və səmərəli istifadəsi məqsədilə xəstələrlə ünsiyyətdədir. Əhalinin təhlükəsiz dərman vasitələri ilə təmin edilməsi müasir dövrdə ən aktual məsələlərdən biridir. Statistika göstərir ki, dərman vasitələrinin təhlükəsizliyi problemi artıq milli problem hüdudlarından çıxaraq qlobal problemə çevrilib.

Ölkəmizdə əczaçılıq təhsilinin və sənayesinin əsası ötən əsrdə qoyulmuşdur. Hazırda yerli əczaçılıq sənayesinin inkişaf etdirilməsi, əhalinin keyfiyyətli dərman preparatları ilə təminatı dövlətin səhiyyə siyasətinin prioritet istiqamətlərindən biridir

Bu gün əczaçılıq sektorunda da mühüm nailiyyətlər əldə olunur. Yerli əczaçılıq sənayesinin inkişafı istiqamətində həyata keçirilən islahatlar, sənaye parklarının yaradılması, xarici investisiyaların cəlb olunması və regionlarda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə müasir istehsal müəssisələrinin qurulması bu sahənin dayanıqlı inkişafını təmin edir. Elektron resept sistemi isə dərman vasitələrinin Təqib və İzləmə Sistemi kimi rəqəmsal həllər şəffaflığın artırılmasına, nəzarət mexanizmlərinin gücləndirilməsinə və idarəetmənin daha effektiv təşkilinə xidmət edir.

# Beynim yorulub, yoxsa...

## Zehni və fiziki yorğunluğun fərqləri

İnsan bəzən saatlarla fiziki iş görməsə də, özünü tükənmiş hiss edir. Kompüter qarşısında keçirilən uzun iş günü, ardıarası kəsilməyən telefon zəngləri, qərar vermək məcburiyyəti, narahatlıq və düşüncələr enerjimizi səssizcə tükədə bilir. Elə zamanlar da olur ki, gün ərzində görülən ağır fiziki işdən sonra insanın əzələləri ağrıyır, bədəni sanki hərəkət etmək istəmir. Söhbət zehni və fiziki yorğunluqdan gedir. Ancaq müasir həyatın sürətli ritmində bu iki yorğunluq çox vaxt bir-birinə qarışır. İnsan fiziki cəhətdən oturaq həyat sürsə də, zehni baxımdan həddindən artıq yüklənə bilər.

### Zehni yorğunluq özünü necə göstərir?

Zehni yorğunluğun ən xarakterik xüsusiyyəti beynin əvvəlki kimi “işləməməsidir”. İnsan diqqətini toplamaqda çətinlik çəkir, sadə qərarları belə vermək ağır gəlir, oxuduğunu təkrar-təkrar oxumağa ehtiyac duyur. Bəzən ən adi sözü xatırlamaq çətinləşir.

Belə vəziyyətdə insan fiziki baxımdan çox iş görməyib, amma beynində sanki uzun bir iş növbəsini başa vurub. Daimi narahatlıq, stress, çoxsaylı işlər, informasiya bolluğu, yuxusuzluq və fasiləsiz ekran istifadəsi zehni yorğunluğu artıra bilər.

### Fiziki yorğunluğun siqnalları fərqlidir

Fiziki yorğunluqda isə bədən daha çox “danışır”. Əzələlərdə ağırlıq, halsızlıq, hərəkət etmək istəyinin azalması, fiziki fəaliyyət zamanı əvvəlkindən daha tez yorulmaq bu vəziyyətin əsas əlamətləri sırasında ola bilər. Məsələn, ağır yük qaldırmaq, uzun müddət ayaq üstə qalmaq, intensiv idman etmək və ya fiziki iş görməkdən sonra yaranan yorğunluq normal fizioloji reaksiyadır. Orqanizm enerji sərf edib və bərpa üçün istirahətə ehtiyac duyur.

Amma burada mühüm bir fərq var: normal yorğunluq adətən səbəb aradan qalxdıqda və insan kifayət qədər dincəldikdə azalır. Davamlı və səbəbi izah olunmayan yorğunluq isə başqa məsələyə işarə edə bilər.

### Yorğunluğun ən böyük “düşməni”

Bəzən yorğunluğun qarşısını qəhvə və yaxud enerji içkiləri ilə almağa çalışırlar. Halbuki orqanizmin əsas bərpa mexanizmlərindən biri keyfiyyətli yuxudur. Yuxu rejiminin pozulması yorğunluğun ən geniş yayılmış səbəblərindən biridir. Buna görə hər gün təxminən eyni vaxtda yatmaq və oyanmaq, yatmazdan əvvəl sakitləşdirici rejim yaratmaq, yataq otağında işıq və səs-küyü azaltmaq faydalı ola bilər.



### Həmişə yataqda uzanmaq çıxış yolu deyil

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən terapevt-həkim Fizuli Zeynalov bildirib ki, günümüzdə sosial şəbəkələr, xəbərlər, mesajlar, video və fasiləsiz informasiya axını beynin daim yeni məlumat emal etməsinə səbəb olur: “Buna görə zehni yorğunluq zamanı sadəcə işdən uzaqlaşmaq yox, beyinə informasiya fasiləsi vermək də vacibdir. Sakit gəzinti, musiqiyə qulaq asmaq, nəfəs məşqləri, təbiətdə vaxt keçirmək və ekranlardan müəyyən müddət uzaq qalmaq zehni yüklənməni azaltmağa kömək edə bilər.

Fiziki yorğunluğun çarəsi isə həmişə yataqda uzanmaq deyil. Bu, ilk baxışda paradoksal görünə bilər. İnsan yorulubsa, niyə hərəkət etsin? Lakin hərəkətsizlik özü də yorğunluğu artıran amillərdən biri ola bilər. Sağlamlıq imkanları olan insanlar üçün müntəzəm və ölçülü fiziki aktivlik uzunmüddətli perspektivdə enerji səviyyəsinin yaxşılaşmasına kömək edə bilər. Hətta qısa gəzinti belə enerji hissini artıra bilər.

Burada əsas məsələ özünü həddindən artıq yükləməməkdir. Yorğunluq zamanı ən doğru yanaşma ya heç nə etmə, ya da özünü tam gücə sal prinsipi deyil. Fəaliyyəti gün ərzində bölmək, aralarda qısa fasilələr vermək və yükü tədricən artırmaq daha məqsədəuyğundur”.

### Enerjinin vacib komponentləri

Terapevtin sözlərinə görə, gün ərzində uzun müddət ac qalmaq, balanssız qidalanmaq və kifayət qədər maye qəbul etməmək insanın enerjisinə təsir göstərə bilər: “Enerji səviyyəsini qorumaq üçün müntəzəm və balanslı qidalanma, kifayət qədər maye qəbulu vacibdir. Qəhvə və şəkərli məhsullar qısa müddətlik enerji artımı hissi yaratsa da, bu, yorğunluğun əsas səbəbini aradan qaldırmır”.

### Beynin də fasiləyə ehtiyacı var

Həkimin sözlərinə görə, zehni yorğunluğun zamanı insanın iş qabiliyyətini bərpa etməsi üçün yalnız fiziki istirahət kifayət deyil: “Beynin də fasiləyə ehtiyacı var. Gün ərzində fasiləsiz işləmək, daim telefon və kompüter qarşısında olmaq, eyni vaxtda bir neçə məsələni həll etməyə çalışmaq zehni yüklənməni artırır. Buna görə iş rejimində qısa fasilələr, normal yuxu, açıq havada gəzinti və fiziki aktivlik mühüm rol oynayır. Əsas məsələ insanın öz bədənini dinləməsi və yorğunluğun səbəbini düzgün müəyyənləşdirməsidir”.

### Nə vaxt təhlükəlidir?

F.Zeynalov qeyd edib ki, insanın kifayət qədər yatmasına, qidalanmasına və istirahət etməsinə baxmayaraq, özünü həftələrlə yorğun hiss etməsi təhlükəli ola bilər: “Davamlı yorğunluğun səbəbləri arasında anemiya, şəkərli diabet, qalxanabənzər vəzin fəaliyyət pozuntuları, yuxu problemləri, depressiya və digər sağlamlıq problemləri də ola bilər.

Sinə ağrısı, nəfəs darlığı, ürək döyüntüsünün kəskin sürətlənməsi və ya nizamsızlaşması, huşunu itirəcək kimi olma, qeyri-adi qanaxma və güclü baş ağrısı ilə müşayiət olunan yorğunluq təcili tibbi qiymətləndirmə tələb edə bilər”.

*Yeganə BAYRAMOVA*

**İdman**

## Azərbaycanın boks millisi Avropa çempionatında rekorda imza atıb

Kişi boksçulardan ibarət Azərbaycan millisi Avropa çempionatında da medal sayında yeni rekord vurub.

Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a bildirilib ki, yığma bu nailiyyətə Bolqarıstanın paytaxtı Sofiyada keçirilən yarışda imza atıb.




Boksçumuz Səidcəmşid Cəfərov (75 kiloqram) Avropa çempionatında yarımfinala vəsiqə qazanmaqla 5-ci medalı təmin edib və millimiz tarixi ilki reallaşdırıb. İndiyədək idmançılarımız analoji yarışlarda 1 dəfəyə ən çox 4 mükafata sahib olmuşdular. 2006-cı ildə Plovdivdə, 7 il sonra Minskdə təmsilçilərimiz 4 dəfə fəxri kürsüyə yüksəlmişdilər. Bu dəfə 5 medalın təmin edilməsi isə Avropa çempionatlarında yeni rekorddur.

Millinin heyətində Cəfərovdan öncə Sübhan Mamedovla (50 kiloqram) Nəbi İsgəndərov (70 kiloqram) finala, Amin Məmmədzadə (55 kiloqram) yarımfinala vəsiqə əldə edib. Məhəmməd Abdullayev (+90 kiloqram) isə bürünc medalı rəsmiləşdirib.

Qeyd edək ki, çempionata sentyabrın 25-də yekun vurulacaq.

## Deflimpiyaçı atıcımız tarixi nəticə qazanıb

Azərbaycanın deflimpiyaçı güllə atıcısı Əli İskəndərli Serbiyanın Novi Sad şəhərində keçirilən Avropa çempionatında bürünc medal qazanıb.

Deflimpiya Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, idmançı 10 metr məsafəyə pnevmatik tapançadan atəşaçma növü üzrə yarışlarda 3-cü yeri tutub. Bu, atıcılıq üzrə Azərbaycan deflimpiya tarixində ilk medal kimi tarixə düşüb.

Milli komandanın digər üzvü Nicat Əzimov isə yarışda 5-ci yerlə kifayətlənib.



Qeyd edək ki, Azərbaycan ilk dəfə eşitmə qabiliyyəti məhdud olan atıcılar arasında Avropa çempionatında təmsil olunur.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4446**
**Sifariş: 1241**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova